

## Cənubi Qafqazda yeni münaqişə təhlükəsi var?

15

# Səs

№ 201 (6401) 3 noyabr 2021-ci il. Qiymətі 40 qəpik

# Milli sərvətimiz olan dini abidələrimiz və məscidlərimiz yenidən qurulur



2

## Gürcü politoloq:

### Füzuli aeroportunun açılışı mənəvi, siyasi və maddi cəhətdən çox böyük əhəmiyyətə malikdir



Füzuli Beynəlxalq Hava Limanının açılışı həm mənəvi, həm siyasi, həm də maddi cəhətdən çox böyük əhəmiyyətə malikdir. Bunu AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava deyib. O qeyd edib ki, Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən cəmi bir il keçib, amma bu müddət ərzində çox böyük və əsaslı işlər görülüb. Yəni, Azərbaycan...

5

# Prezidentdən böyük humanizm: ZƏFƏR GÜNÜ ilə bağlı Amnistiya elan ediləcək!



Azərbaycanda bir sıra məhkumlar cəzalarının çəkilməmiş hissəsini çəkməkdən azad edilir. SİA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin imzası ilə parlamentə daxil olan "8 Noyabr - Zəfər Günü münasibətilə...

3

# Ronaldo: "İtaliya ürəyimdə əbədi qalacaq"



"Mançester Yunayted"in portuqaliyalı hücumçusu Kriştiano futbol üzrə UEFA Ronaldo Çempionlar Liqasının qrup mərhələsinin 4-cü turunda "Atalanta" ilə səfər oyunu öncəsi fikirlərini bildirib. Portuqaliyalı superulduz özünün "İnstaqram" hesabında belə yazıb: "Məni və ailəmi çox gözəl qarşılayan, ürəyimdə əbədi qalacaq...

16

# Uşaq zorakılığı azalmaq əvəzinə NİYƏ ÇOXALIR?



## CƏMİYYƏTİN BAXIŞI

Yer üzünün mələkləri uşaqlardır. Uşaqlar bizə Allahın əmanətidir. Onları qorumaq bizim borcumuzdur. Onlar bizim gələcəyimizdir. Hər bir valideyn övladına qarşı düşüncəli, həssas, mərhəmətli yanaşmalıdır. Onların dediklərinə qulaq asmaq, fikirlərinə hörmətlə yanaşmaq lazımdır. Uşaq hüquqlarını...

5

## Ermənilər Xankəndini tərk edir - Rusiya köçün qarşısını ala biləcəkmi?





## İranın hakimiyyətyönlü analitik saytından Ermənistana dəstək

13

Vacib olduğu zaman İran Ermənistana hərbi və kəşfiyyat dəstəyi göstərməlidir. SİA xəbər verir ki, bu haqda...

## Diqqət:



## Kitab və dərsliklərin idxalı və satışı ƏDV-dən azad edilir

10

Dünən Milli Məclisdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham...

# Milli sərvətimiz olan dini abidələrimiz və məscidlərimiz yenidən qurulur

TƏHLİL

Ötən 18 il ərzində Prezident İlham Əliyev atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayır. Azərbaycanın maraqları çərçivəsində, Prezident İlham Əliyevin şərtləri əsasında 44 günlük müharibənin nəticəsi olaraq Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə nöqtə qoyuldu və 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq. Və bu gün Zəfər Gününün ildönümü ərəfəsindəyik. Belə bir böyük bayram ərəfəsi Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Şamaxı və İsmayıllı rayonlarında səfərdə olublar.



## Dövlət vətəndaşının yanında olanda

Bədbəxt hadisələr, müharibə zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir. Ölkə başçısı daim vətəndaşlarla ünsiyyətdədir, Cənubdan Şimala, Qərbdən Şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Lənkəranda bina çökəndə, Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü, əlini kürəyində hiss etdi. İstər 2016-cı ilin aprel döyüşlərində, Ermənistanın Tovuz təxribatında, 44 günlük müharibə dövründə erməni terroru ilə əlaqədar proseslərdə də Prezident İlham Əliyev erməni terroru, xain hücumları baş verən gündən bütün məsələləri nəzarətinə götürdü, dövlət dəstəyinin təmin edilməsi üçün müvafiq komissiyalar yaratdı. Formalaşdırılmış 11 işçi qrupu erməni vandalizmi nəticəsində mülki əhaliyə, dövlət əmlakına dəymiş ziyanın müəyyənləşdirilməsi ilə bağlı müvafiq addımlar atdı. İlkin qiymətləndirmələr başa çatdıqdan dərhal sonra Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə problemin aradan qaldırılması üçün tədbirlər görüldü. Bütün bunlar bir daha göstərir ki, dövlət hər zaman vətəndaşın yanındadır.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyevanın Şamaxı və İsmayıllı rayonlarında səfərdə olması bölgədə baş verən zəlzələdən sonra təbii fəlakətin törətdiyi fəsadlardan sonra görülən işlərlə tanış olması vətəndaşlarla görüşləri, söhbətləri, müvafiq qurumların rəhbərlərinə verdiyi tapşırıqlar bir daha göstərdi ki, Cənab İlham Əliyev xalqa əsl xidmət nümunəsi göstərərək, insanların daim yanındadır, onların problemlərinə, qayğılarına həssas münasibət bəsləyir.





**Prezident İlham Əliyev: "Azərbaycan dövləti Azərbaycan vətəndaşının yanındadır, onun arxasındadır və ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcək"**

## Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurmadan sonra açılışı olub

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 1-də Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışını edib. Qeyd olunub ki, Şamaxı rayonunda Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahı əhalinin ən çox ziyarət etdiyi müqəddəs ocaqlardan biridir. 2019-cu ildə Şamaxıda baş verən zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2020-ci ildə burada bərpa-yenidənqurma işlərinə və yeni məscid binasının inşasına başlanıldı. Elə həmin il mayın 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ziyarətgahın yenidən qurulması çərçivəsində görülən işlərlə tanış oldular. Mütəxəssislərin iştirakı ilə həyata keçirilən işlər nəticəsində tarixi abidə və müqəddəs ziyarətgah-məscid kompleksi qısa müddətdə yenidən quruldu. Məsciddə ibadət zalı ilə yanaşı, mərasim zalları da inşa olunub.



Qeyd edək ki, Prezident İlham Əliyevin xüsusi diqqəti sayəsində dini ziyarətgahlarımız və dini məbədlərimiz yenidən qurulur. Bu sahəyə Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir, istər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında yerləşən Pirsaat Baba ziyarətgahıdır.

Onu da deyək ki, müxtəlif zamanlarda dağıntıya məruz qalmış orta əsrlərə aid bu ziyarətgah 1918-ci ildə Hacı Cəfərqulu adlı xeyirxah şəxs tərəfindən türbə şəklinə salınıb. Ziyarətgah sovetlər dövründə dağıdılsa da, müstəqilliyimizin bərpasından sonra 1993-cü ildə yenidən inşa edilib, lakin zəlzələ nəticəsində dini ocağa zərər dəymişdi. Ötən ildən başlayaraq həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri nəticəsində artıq dini ibadətgah yenidən əhalinin ixtiyarına verilir.

Həmçinin, Prezident və birinci xanım Şamaxı Gənclər Parkında görülmüş işlərlə tanış olublar. Gənclər Parkı Prezident İlham Əliyevin Sərəncamı ilə 2020-ci ilin "Könüllülər İli" elan edilməsi çərçivəsində "Regional İnkişaf" İctimai Birliyinin təşəbbüsü ilə yaradılıb. Qeyd edək ki, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən gənclərin idmana olan marağının artırılması, asudə vaxtlarının səmərəli təşkili və sağlam həyat tərzinin təbliği məqsədilə regionlarda müxtəlif layihələr həyata keçirilir. Bu layihələr çərçivəsində Şamaxı şəhərindəki park da yenidən qurulub, yaşıllıq və gəzinti sahələri yaradılıb, sakinlərin və qonaqların istirahəti üçün infrastruktur qurulub. Açıq havada idmanla məşğul olmaq üçün müxtəlif idman qurğuları quraşdırılıb.

## Şamaxıda baş verən zəlzələdən sonra 4 minə yaxın ev yenilənib

Şamaxıda baş verən zəlzələdən sonra Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə təmir, bərpa və tikinti işləri tam olaraq dövlət vəsaiti hesabına həyata keçirilir. Şamaxıda 4 minə yaxın ev yenilənib və hələ bu layihə davam edir. Məhz dövlət başçısının hər bir sahədə öz vətəndaşının yanında olması bir daha hər bir vətəndaşın Prezidenti olduğunu göstərir. Məhz bu qayğının göstəricisidir ki, son illərdə Şamaxıda təhsil sahəsində də xeyli iş görülüb, rayonda 70 məktəbdən 49-u yenilənib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda səfər çərçivəsində Uşaq və Ailələrə Dəstək mərkəzinin, Basqal-Sulut avtomobil yolunun açılışında, 6 saylı tam orta məktəbin yeni binasının istifadəyə verilməsi, Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar.

Qeyd edək ki, 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində səfərdə olarkən sakinlər Bədöyün məscidinin təmiri ilə bağlı müraciət etmişdilər. Birinci vitse-prezident məsciddəki vəziyyətlə tanış olmuş və burada əsaslı təmir işlərinin aparılması barədə tapşırıq vermişdi. Ötən müddət ərzində 1791-ci ildə inşa edilən Bədöyün məscidində və ətraf ərazilərdə Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa-təmir işləri aparılıb. Görülən işlər nəticəsində məscid orijinal formasına uyğun bərpa edilib. Məscidin minarəsi yenidən qurulub, dəstəmazxana inşa olunub. Məscidin qadınlar üçün nəzərdə tutulan hücrə və şəbəkələri əvvəlki görünüşünə qaytarılıb.

Məlumat üçün bildirək ki, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihələr çərçivəsində bölgələrdəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

Bir sözlə, görülən işlər Azərbaycan dövlətinin Azərbaycan vətəndaşının yanında, onun arxasında olduğunun göstəricisidir. Dövlət başçımızın dediyi kimi: "Və bu gün ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcək".

Beləliklə, Prezident İlham Əliyevin zəlzələnin baş verdiyi Şamaxı rayonuna səfəri dövlət başçısının bir daha hər zaman xalqın yanında olduğunu göstərdi. Bütün bu faktlar Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaşların mənafeyi dayanır.

**RƏFİQƏ KAMALQIZI**

# Prezidentdən böyük humanizm: ZƏFƏR GÜNÜ ilə bağlı Amnistiya elan ediləcək!

**Azərbaycanda bir sıra məhkumlar cəzalarının çəkilməmiş hissəsini çəkməkdən azad edilir. SİA-nın xəbərinə görə, bu, Prezident İlham Əliyevin imzası ilə parlamentə daxil olan "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsində əksini tapıb.**

Layihədə qeyd olunub ki, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilən şəxslər, müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 3 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslər, az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər, böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasına məhkuş edilmiş şəxslər, habelə az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə azadlığın məhdudlaşdırılması cəzasının bu qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər cəzalarının çəkilməmiş hissəsini çəkməkdən azad ediləcək. Bununla bağlı "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərar layihəsi növbəti plenar iclasda müzakirəyə çıxarılacaq.










Qeyd edək ki, Milli Məclisin növbəti iclası noyabrın 5-də keçiriləcək.

## Politoloq:

# "Prezident İlham Əliyevin apardığı müdrik siyasət Ermənistanın bütün planlarının üstündən xətt çəkdi"

***Biz bir neçə gündən sonra Vətən müharibəsinin tarixi Qələbə ilə başa çatmasını qeyd edəcəyik. Təbii ki, bu, Azərbaycan tarixində çox əlamətdar, hətta demək olar ən yaddaqalan günlərindən biridir. Çünki bu gün biz 200 il ərzində itirilən torpaqların bir hissəsini 44 günə qaytarmaqla ermənilərə və onların havadarlarına sübut etdik ki, müstəqil Azərbaycan Respublikasının bir qarış torpağını belə heç kimə güzəştə getməyəcəyik.***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Bakı Politoloqlar Klubunun rəhbəri politoloq Zaur Məmmədov söyləyib.

Ermənilərin reallıqla uzlaşmayan xəyallarından danışan politoloq deyib: "Zaman-zaman bəlli idi ki, ermənilərin Azərbaycan torpaqlarını işğal edəndən sonra onlar daha da həvəslənərək "dənizdən-dənizə" Ermənistanı yaratmaq xülyasının reallaşacağını düşünürdülər. Təbii ki, Ermənistanın nəinki "dənizdən-dənizə" planı baş tutdu, hətta onların digər dövlətlərin köməyi ilə Azərbaycan torpaqlarını işğal altında saxlamaq cəhdləri də iflasa uğradı. Prezident İlham Əliyevin apardığı müdrik siyasət Ermənistanın bütün planlarının üstündən xətt çəkdi. Ermənistan acı məğlubiyyət nəticəsində ağır siyasi, iqtisadi zərbə aldı. Azərbaycanın etdiyi uzaqgörən, düşünülmüş və perspektivli siyasi gedişlər göstərdi ki, nəinki "dənizdən-dənizə" Ermənistan dövləti, ümumiyyətlə, onların bugünkü ərazi suverenliyi də sual altına düşə bilər. Əgər Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları, təxribatlar və hər hansı bir təhdidlər olarsa, o zaman onların bugünkü aqibəti bəlli olmayacaq. Təbii ki, Prezident İlham Əliyevin hər bir qərarı, atdığı hər bir addımı yalnız ona istiqamətlənib ki, bizim xalqımızın və dövlətimizin milli maraqları reallaşsın. Xalqımız və dövlətimiz, nəhayət, öz məqsədlərinə çatdı. Nəticə etibarilə biz bu tarixi günləri yaşadıq".



Zaur Məmmədov vurğulayıb ki, müharibədən sonra qısa zamanda dost ölkələrin nüfuzlu şirkətlərini cəlb etməklə Azərbaycan cəmi bir neçə ay ərzində işğaldan azad olunmuş bütün rayonlarda yenidənqurma və bərpa işlərinə start verib. Bu yaxınlarda Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizinin də əsası qoyulub. Təkcə bir ay ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş Tərtərə, Suqovuşana, Talış kəndinə, həmçinin Cəbrayıl, Xocavənd, Füzuli, Zəngilan, Qubadlıya 8 səfər həyata keçirib. Bundan başqa, Vətən müharibəsi dövründə ciddi dağıntılara məruz qalmış Bərdə və Tərtərin müxtəlif yaşayış məntəqələrində olub. Bütün bunlar onu göstərir ki, bugünkü yenidənqurma və bərpa işləri məhz Prezident İlham Əliyevin birbaşa başçılığı altında həyata keçirilir. Prezident İlham Əliyev Azərbaycan xalqının arzularını reallığa çevirdi. Həmçinin xalqı inamla gələcəyə aparması Prezident İlham Əliyevi həmişəlik xalqın rəğbət bəslədiyi Liderə çevirdi.

## "Məsuliyyətə cəlb edilmiş şəxslər azadlığa çıxacaq"

"Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə Konstitusiyanın 96-cı maddəsi rəhbər tutularaq 8 noyabr Zəfər günü münasibəti ilə "Amnistiya Aktı"nın yerinə yetirilməsi haqqında qərar layihəsi müzakirəyə çıxarılmaq üçün Milli Məclisə təqdim edilmişdir". Bunu SİA-ya açıqlamasında Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, İnsan Haqları üzrə Birgə Qrupun üzvü Əliməmməd Nuriyev deyib.



Onun sözlərinə görə, bu gün Milli Məclisin müvafiq komitələrində həmin "Amnistiya Aktı"nın müzakirəsi keçirilir və bu məsələ eyni zamanda noyabrın 5-də Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılacaq: "Mən inanıram ki, bu Amnistiya Milli Məclis tərəfindən qəbul olunacaq. Çünki bu çox əhəmiyyətli bir hüquqi aktdır və Azərbaycanın ən mühüm tarixi günündə təqdim olunur. "Amnistiya Aktı"nda nəzərdə tutulmuş cinayətlərə görə məsuliyyətə cəlb edilmiş və məhkum olunmuş şəxslər azadlığa çıxacaqdır. Cinayət məsuliyyətindən və cəzadan azad ediləcəkdirlər".

***Abutel İlhamqızı***

# BRAZİLİYALI SENATOR:

## "İnanıram ki, işğaldan azad olunmuş ərazilər tezliklə inkişaf etmiş bölgəyə çevriləcək"



**Noyabrın 2-də Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Braziliya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun rəhbəri senator Antonio Anastasia ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Milli Məclisin sədri bildirib ki, Azərbaycanla Braziliya arasında əlaqələrin inkişafında müsbət dinamika mövcuddur. Azərbaycan BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində Braziliya ilə əməkdaşlığın davam etdirilməsində maraqlıdır. Diplomatik əlaqələrimizin yaradıldığı 30 ilə yaxın müddət ərzində iki ölkə arasında münasibətlərin hüquqi bazası formalaşdırılıb.

Ölkələrimizin parlamentləri arasındakı əlaqələrdən danışan Sahibə Qafarova bildirib ki, həm Milli Məclisdə, həm də Braziliya Milli Konqresinin Senatında və Deputatlar Palatasında parlamentlərarası əlaqələr üzrə işçi qrupların qarşılıqlı fəaliyyət göstərməsi təqdirəlayiqdir. Deputatlarımız beynəlxalq parlament təşkilatlarında da uğurla əməkdaşlıq edirlər.

Parlamentin sədri braziliyalı senatora 44 günlük Vətən müharibəsi haqqında da məlumat verib. Bildirib ki, ötən il sentyabrın 27-də Ermənistan tərəfindən törədilən növbəti təxribatdan sonra Azərbaycan əks-hücum əməliyyatına başlayıb və beynəlxalq sənədlərdə də əksini tapmış özünümüdafiə hüququndan istifadə edərək torpaqlarını işğaldan azad edib. Noyabrın 10-da Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin imzaladığı üçtərəfli Bəyanatla münaqişəyə son qoyulub. Azərbaycan bununla da torpaqlarımızın Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyub və öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının müvafiq 4 qətnaməsini öz gücünə yerinə yetirib.

Söhbət zamanı senator Antonio Anastasianın işğaldan azad olunmuş Ağdam şəhərinə səfər etdiyini və orada baş vermiş dağıntıları öz gözləri ilə gördüyünü xatırladan S.Qafarova vurğulayıb ki, işğaldan sonra Ağdamın və digər şəhər və rayonlarımızın yalnız adları qalıb. Ermənistan 30 il işğal altında saxladığı bütün yaşayış yerlərini, şəhər və kəndlərimizi, infrastrukturu, tarix və mədəniyyət abidələrini tamamilə dağıdıb, məhv edib. Hazırda isə minalanmış ərazilərin xəritələrini verməkdən imtina edən Ermənistan bununla da təxribatlarını davam etdirir.

Milli Məclisin sədri, həmçinin qeyd edib ki, Azərbaycan çoxmillətli və tolerant ölkədir. Azərbaycan regionda daimi sülh və əmin-amanlığın təmin olunmasına çalışır. O, hazırda ölkəmizin işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa işlərinə başladığını bildirib və görülən işlər barədə də qonağa məlumat verib.

Görüşdə Braziliya Milli Konqresi Senatının Azərbaycanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, senator Antonio Anastasia ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli münasibətlərin perspektivləri haqqında fikirlərini bölüşüb. Qonaq yüksəksəviyyəli səfərlərin münasibətlərin inkişafındakı xüsusi rolunu qeyd edib.

Söhbət zamanı Azərbaycanla Braziliya arasında əlaqələrin inkişafında parlamentlərin rolu, bu sahədə dostluq qruplarının əhəmiyyəti vurğulanıb. Parlamentlərarası əməkdaşlığın daha da gücləndirilməsi üçün qarşılıqlı səfərlərin, təcrübə mübadiləsinin verə biləcəyi töhfələrdən danışılıb.

Senator Antonio Anastasia Azərbaycana səfəri çərçivəsində Gəncə və Ağdama səfər etdiyini və reallıqların şəxsən şahidi olduğunu diqqətə çatdırıb. Qonaq işğaldan azad edilmiş ərazilərin tezliklə inkişaf etmiş bölgəyə çevriləcəyinə inamını bildirib. Görüşdə digər məsələlər barəsində də fikir mübadiləsi aparılıb.


NOI +10°C $ 17.46 € 20.34

Власти Азербайджана восстанавливают Карабах и снова повысят зарплаты населению

1 ноя. 7:45 В мире 698 0

**Центральные власти Азербайджана вкладывают огромные средства в процесс восстановления Карабаха. Невзирая на отсутствие окончательных договоренностей с Арменией и отсутствие карт минных полей, здесь заново отстраивают города, реконструируют разрушенные трассы и даже начинают прокладывать железную дорогу. При этом президент страны Ильхам Алиев потребовал от правительства**

## Moldova mətbuatı Qarabağdan yazır: "Bütün bərpa işləri Azərbaycanın öz vəsaiti hesabına aparılır"

**Moldovanın noi.md aparıcı xəbər və informasiya portalında məşhur jurnalist və publisist Anna Jdanovanın Qarabağda aparılan bərpa işləri ilə bağlı məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə müəllif Ermənistanla yekun razılaşmanın və mina sahələrinin xəritələrinin olmamasına baxmayaraq, Azərbaycan səlahiyyətliləri tərəfindən şəhərlərin bərpa edilməsi, dağıldılmış avtomobil yollarının yenidən qurulması və hətta dəmir yolunun salınmasına başlanmasını qeyd edir. Vurğulanır ki, dövlət başçısı İlham Əliyev mütəmadi olaraq Qarabağa səfərlər edir, burada görülən işlərə şəxsən nəzarət edir.**

Müəllif yazır ki, Zəngilan rayonunda ilk "Ağıllı kənd" layihəsi həyata keçirilir. Bundan əlavə, Zəngilanın Azərbaycanın nəqliyyat və logistika mərkəzinə çevrilməsi planlaşdırılır. Digər işğaldan azad olunmuş rayonlar - Qubadlı, Kəlbəcər və Laçının da baş planları hazırlanır.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Füzulidə rekord müddətdə - cəmi 8 ayda tikilmiş beynəlxalq hava limanının açılışında iştiraklarından da bəhs edilir. Müəllif yazır ki, bütün bərpa işləri Azərbaycanın öz vəsaiti hesabına aparılır.

Sonda müəllif qeyd edir ki, Azərbaycan Ermənistan tərəfi ilə təkcə çoxdan gözlənilən minalanmış sahələrin xəritəsinin verilməsi ilə bağlı deyil, həm də sərhədlərin yekun demarkasiyası məsələsi ilə bağlı danışıqlar prosesini davam etdirir.

## "Azərbaycan regionun sülh, sabitlik və inkişaf məkanına çevrilməsi üçün lazımi tədbirləri görməkdə davam edəcək"

**Azərbaycanın 44 günlük Vətən müharibəsinin birinci ildönümünün qeyd edilməsi və həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması ilə əlaqədar Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov tərəfindən Danimarka parlamentinin Xarici əlaqələr komitəsinə məktub ünvanlanıb.**

AZƏRTAC xəbər verir ki, məktubda Azərbaycanın BMT və digər beynəlxalq təşkilatlar tərəfindən münaqişə ilə bağlı sənədlərin icrasını səmərəli şəkildə təmin etməklə 44 günlük Vətən müharibəsində Qələbə qazandığı, öz ərazi bütövlüyünü bərpa etdiyi, Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdığı vurğulanıb. Həmçinin Azərbaycanın qədim və tarixi torpağı olan Qarabağın həyatında yeni mərhələnin - bərpa və quruculuq dövrünün başlanmasının təqdirəlayiq və sevindirici hal olduğu qeyd edilib. Danimarkalı siyasətçilərin diqqətinə çatdırılıb ki, 30 il ərzində işğal olunmuş torpaqlarda amansızcasına vandalizmə məruz qalmış yaşayış məskənlərinin bərpası üzrə layihələr artıq icra edilir, infrastruktur obyektləri qurulur, hava limanları, yollar, körpülər, tunellər və digər obyektlər tikilir, elektrik təchizatı və su xətləri çəkilir.



Bununla yanaşı, S.Seyidov məktubda regionun bütün etnik qrupların nümayəndələrinin firavan yaşadığı sülh, sabitlik və inkişaf məkanına çevrilməsi üçün Azərbaycan Respublikasının bundan sonra da bütün lazımi tədbirləri görməkdə davam edəcəyinə qarşı tərəfin diqqətinə çatdırıb.

Komitə sədrinin məktubu Danimarka parlamentinin Xarici əlaqələr komitəsinin üzvləri arasında paylanılıb və parlamentin internet səhifəsində ictimai sənəd kimi dərc edilib.



# Uşaq zorakılığı azalmaq əvəzinə NİYƏ ÇOXALIR?

## CƏMİYYƏTİN BAXIŞI

**Yer üzünün mələkləri uşaqlardır. Uşaqlar bizə Allahın əmanətidir. Onları qorumaq bizim borcumuzdur. Onlar bizim gələcəyimizdir. Hər bir valideyn övladına qarşı düşüncəli, həssas, mərhəmətli yanaşmalıdır. Onların dediklərinə qulaq asmaq, fikirlərinə hörmətlə yanaşmaq lazımdır. Uşaq hüquqlarını pozan bütün hallar zorakılıq hesab edilir. Böyüklərin kobud davranışları onların şəxsi inkişafına, sağlamlığına və ləyaqətinə mənfi cəhətdən təsir edir. Amma ölkəmizdə son zamanlarda azyaşlı uşaqlara qarşı istismar halları artıb. Bəs bunun səbəbi nədir? Nə üçün bu hallar azalmaq əvəzinə daha da artır? SİA bu məsələ ilə bağlı şəhər sakinləri arasında sorğu keçirib:**

**Şəhər sakini Nazpəri Əhmədova:** "Valideynlər



övladlarına sahib çıxmalıdırlar. Düzünü demək lazımdırsa, hazırkı dövrdə psixologiyaya dırnaqarası baxılır. Lakin məncə hər bir insan evlənmədən öncə ailə psixologiyasına dair kitablar oxumalıdır, istər uşaqların yetişdirilməsi ilə bağlı, istərsə də ailə modelinin necə qurulması ilə bağlı mütləq kitablar oxunmalıdır. Savadsızlıq, cahillik baş alıb getdiyinə görə uşaqlara qarşı zorakılıq halları da artıb. Ona görə də valideynlər indiki dövrdə daha ehtiyatlı olmalıdır. İstər məktəbdə, istərsə də bağçada uşaqlar nəzarət altında olmalıdır".

**Şəhər sakini Günel Eyvazlı:** "Bütün bunlar valideyn nəzarətsizliyindən irəli



gəlir. Elə son günlərdə 11 yaşlı qızın zorakılığa məruz qalması da valideyn nəzarətsizliyindəndir. Uşaqlar hələ özlərini dərk edənə qədər, özünü idarə etməyi öyrənənə qədər gərək onlara nəzarət edilsin".

**Şəhər sakini Mirfazil Həsənov:** "Birincisi və hər şeydən önəmli olaraq insanın gərək özündə vicdan ol-



sun. Uşaqlara necə rəftar etmək lazım olduğunu bilsin. Onu dərk etmədirlər ki, qarşılarındakı məsum körpədir. Onlara qarşı ən cüzi bir yanlış onların gələcəyinə təsir edir".

**Şəhər sakini Təranə Süleymanova:** "Axır za-



manlarda belə hadisələr tez-tez baş verir. Mən bilmirəm bunlar hara gedib çıxır. Əlbəttə ki, belə hadisələr cəmiyyət tərəfindən pis qarşılanır. Mən də bir anayam. Allah heç bir anaya övlad dağı göstərməsin. Bu hadisələr analar üçün bir dağdır, ölümə bərabər bir şeydir. Məncə, belə, bu cür vicdansız adamlar hər kəsin gözünün qabağında cəzalandırılmalıdır, bunların cəsazı ölüm olmalıdır. Edam etmək lazımdır ki, hamı bundan dərs çıxarsın. Uşaqlara qarşı təcavüzün kökü kəsilsin".

**Şəhər sakini Əli Bayramov:** "Mənə elə gəlir ki, be-



lə insanlar beyinsiz insarlardır. Bu cür vəhşilikləri heç heyvanlar da eləmir. Hər insan övlad sahibi ola bilməz. Bu cür vəhşiliklər azalmaq əvəzinə çoxalır. Bunu cəzasını ən ağır şəkildə ödəməlidirlər. İnsanlığa sığmayan hərəkətlər edirlər, cəzasız qalırlar deyə bu hallar çoxalır".

**Şəhər sakini Həmayıl Cəbiyeva:** "Uşaqlara başa



salmaq lazımdır ki, həyətə çıxanda hər adama qoşulmaq olmaz, tanımadığınız adamdan nəsə götürmək olmaz, tanımadığın adamla söhbət etmək olmaz. Çünki insanlar indi tamam dəyişib. Əvvəllər insanlar hamı birbirinə yardım edərdi, etibar edərdi. Amma indi insanlar elə bil vəhşiləşib. Əvvəllər uşaqlara elə mehriban münasibət göstərilirdi. İndi hər kəs uşaqları başından eləmək üçün əllərinə telefon verirlər. Onlarla maraqlanmırlar".

**Şəhər sakini Banu Məsimova:** "Uşaqlara düzgün tərbiyə vermək lazımdır ki,



onlar böyüyəndə özlərinə düzgün mövqe tutsunlar. Böyüyüb kimisə bədbəxt etməsinlər. Uşaqlara qarşı zorakılıq edən səxslərin özü də bir vaxtlar uşaq olublar. Onlar düzgün tərbiyədə yetişdirilsəydi, belə istismarların sayı azalardı".

**Şəhər sakini Nəsir İskəndərov:** "Mən sovet adamıyam. O zamanlar belə şeylər çox az hallarda baş



verərdi. 11 yaşlı qız uşağına qarşı bunu etmək vəhşilikdir. Bunda biz hamımız günahkarıq. Özünü idarə edə bilməyən insanlar valideynlik edəndə axırı belə olur. Ona görə uşaq sahibi olmaq da böyük məsuliyyət tələb edir".

***Abutel İlhamqızı***

## "Forum haqq səsimizin dünyaya çatdırılması baxımdan önəmli olacaq"



"4-6 noyabr tarixlərində Bakıda növbəti dəfə böyük bir tədbirin keçirilməsi nəzərdə tutulub. Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qlobal Forumu keçiriləcək. Bu günə kimi 2013-cü ildən başlanan bu forum 7 dəfə keçirilmişdir. Forumda müxtəlif məsələlər müzakirə olunmuşdur. Nəzərə alsaq ki, bu forumlarda məhz indi fəaliyyətdə olan dövlət və hökumət başçıları da müəyyən dərəcədə iştirak edir. Eyni zamanda bu forumların iştirakçıları, əsasən, artıq sabiq dövlət və hökumət başçılarıdır. Hansı ki, böyük siyasətdə onların bu gün də böyük rolu var". Bunu SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.

Deputat qeyd edib ki, əlbəttə, bu forumların keçirilməsi, xüsusən də, Bakıda keçirilməsi ölkəmiz üçün çox vacibdir.

Cavid Osmanov bu barədə fikirlərini belə izah edib: "Yeni baş tutacaq forumda "Covid-19-dan sonra yeni dünya nizamı", "yeni dünya iqtisadiyyatı", "əhalinin vaksinasiyası" və o cümlədən "Cənubi Qafqazda regional inkişaf və əməkdaşlıq üçün perspektivlər" və digər mövzular müzakirə olunacaqdır. Nəzərə alsaq ki, Covid-19-la mübarizədə cənab Prezidentin təşəbbüsü ilə ilk dəfə beynəlxalq təşkilatlar səviyyəsində görüş keçirilib. İlk növbədə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası daha sonra Qoşulmama Hərəkatının təmas xətti formatında cənab Prezidentin Covid-19 pandemiyası ilə mübarizə üçün görüş təklifi yekdilliklə qəbul edilib. Bakıda keçiriləcək bu dəfə ki, forum bu mövzuya həsr olunacaq və o cümlədən Cənubi Qafqazda regional inkişaf və əməkdaşlıq üçün perspektivlər mövzusu müzakirə olunacaqdır. Bu həm də Azərbaycanın dünyada qlobal tədbirlərə qarşı rolunu əks etdirir. Digər bir tərəfdən də bu platforma ötən ilin sentyabrın 27-də başlanan və 44 gün davam edən müharibə nəticəsində azad edilmiş ərazilərin və bütövlükdə regionda əməkdaşlıq axtarışı və Azərbaycanın haqq səsinin bütün dünyaya bir daha çatdırılması baxımdan önəmli olacaq".

***Turqay Musayev***

## Gürcü politoloq: Füzuli aeroportunun açılışı mənəvi, siyasi və maddi cəhətdən çox böyük əhəmiyyətə malikdir



Füzuli Beynəlxalq Hava Limanının açılışı həm mənəvi, həm siyasi, həm də maddi cəhətdən çox böyük əhəmiyyətə malikdir. Bunu AZƏRTAC-a müsahibəsində gürcü politoloq Tengiz Txilava deyib.

O qeyd edib ki, Azərbaycanın Vətən müharibəsindəki Qələbəsindən cəmi bir il keçib, amma bu müddət ərzində çox böyük və əsaslı işlər görülüb. Yəni, Azərbaycan bu bir ili boşuna yola salmayıb, vaxt itirmədən çox ciddi işlər həyata keçirib.

"Hamıya məlumdur ki, ermənilər işğal etdikləri ərazilərdə heç bir infrastruktur yaratmayıb, əksinə, olanları da dağıdaraq tam məhv ediblər. Görünür, onlar yaxşı başa düşürdülər ki, işğal etdikləri əraziləri gec-tez qaytaracaqlar", - deyən politoloq əlavə edib ki, Prezident İlham Əliyev ilk gündən Qələbədən sonra dayanmaq olmaz demişdi. Bildirmişdi ki, bu ərazilərdə köklü dəyişikliklər edilməlidir və biz, çox mühüm dəyişikliklərin şahidiyik. Bu gün təkcə Füzuli Beynəlxalq Hava Limanının açılışını görmürük. Bu gün işğaldan azad edilmiş ərazilərdə çox böyük quruculuq, təmir-bərpa işləri görülür, yeni yollar salınır, iqtisadi, sosial və ictimai binalar tikilir, yeni infrastruktur yaradılır. Bu isə bir daha onu deməyə əsas verir ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etməklə kifayətlənməyib, regionun inkişafı üçün əlindən gələni edir", - deyə Txilava vurğulayıb.

Politoloqun sözlərinə görə, Prezident İlham Əliyevin bu siyasəti, işğaldan azad edilmiş bölgələrin sosial-iqtisadi inkişafı təkcə Azərbaycan üçün deyil, region dövlətlərinin inkişafı üçün də zəmin və geniş imkanlar yaradacaq.

**Məlum olduğu kimi, Asiya və Avropanı birləşdirən Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun istifadəyə verilməsindən 4 il keçir. "Şərq-Qərb", "Şimal-Cənub" və "Cənub-Qərb" nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan regionun tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır və bu, ölkəmizi mühüm nəqliyyat-logistika mərkəzinə çevirir. Nəqliyyat-logistika və tranzit potensialının inkişaf etdirilməsi Azərbaycanın prioritet məsələlərindən biridir. Ölkəmizdə inkişaf etmiş nəqliyyat infrastrukturu yaradılır, nəqliyyat kompleksi xidmətlərinin keyfiyyəti artırılır. Bu istiqamətdə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Abşeron Logistika Mərkəzi kimi layihələr artıq həyata keçirilib, "Şimal-Cənub", "Şərq-Qərb" və "Cənub-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşdırılması davam edir, bu dəhlizlər müxtəlif qitələrdə yerləşən ölkələri birləşdirir.**

# Bakı-Tbilisi-Qars dəmir yolu:

## Asiya və Avropanı birləşdirən ən qısa və etibarlı iqtisadi layihə!











İnfrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Ona görə ki, nəqliyyat-logistika sistemlərinin inkişafı sayəsində daşımaların həcmini qat-qat artırmaq mümkün olur.

Bakı-Tbilisi-Qars qitələrarası daşımalar üçün geniş imkanlar açır. Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan bu dəmir yolunun yaratdığı əlverişli şərait bir çox ölkələri, xüsusilə Şərq ölkələrinin diqqətini cəlb edir.

Bütün region üçün strateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılışı mərasimindən 4 il keçir. Bu nəqliyyat qovşağının açılışında Prezident İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və onun xanımı Əminə Ərdoğan, Qazaxıstan, Gürcüstan, Özbəkistan, habelə Tacikistan və Türkmənistanın rəhbər şəxsləri iştirak ediblər.

BTQ Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Bakı-Tbilisi-Qars dəmir yolu Çinin elan etdiyi, Azərbaycan da daxil olmaqla bir sıra ölkələrin dəstəklədiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyasının tərkib hissəsinə çevrilir. Bu strategiya iki mühüm inkişaf istiqamətini əhatə edir: 60-dan çox ölkəni əhatə edən İpək Yolu iqtisadi kəməri və Dəniz İpək Yolu. İpək Yolunun uzunluğu 18 min kilometrdir. Söhbət şərqdən qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizi yaradılmasından gedir. Bakı-Tbilisi-Qars dəmir yolunu İpək Yolu iqtisadi kəmərinin tərkib hissəsi kimi nəzərdən keçirsək, onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. İnamla deyə bilərik ki, bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır.

Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla onu tranzit daşımalar mərkəzinə çevirir. Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun təntənəli açılış mərasimində ki çıxışında deyib: "Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon ton, ondan sonrakı mərhələdə 17 milyon ton, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bir sözlə, Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi və qarşılıqlı sərmayə qoyuluşu artacaq. Bu yoldan istifadə edən bütün ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə və təhlükəsizliyə xidmət göstərəcək".

### Yükdaşımaların həcmi artırılır

Bu il ilk dəfə olaraq BTQ vasitəsilə ixrac yüklərinin nəqlinə də başlanılıb. Belə ki, Azərbaycanda istehsal olunan metal konstruksiyaları Türkiyəyə ixrac olunub. Ümumilikdə isə indiyədək Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə təqribən 1,3 milyon ton həcmində yük daşınıb. Bu dəmir yolu ilə gələcəkdə 15 milyon tonadək yük daşımaq mümkün olacaq.

### Multimodal daşımalar təmin olunur

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yüktoplama məntəqəsi funksiyasını yerinə yetirir. Bu liman şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəmizə daxil olan yüklərin toplanmasını, onların BTQ üzrə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınmasını təmin edən səmərəli və davamlı logistika zəncirinin formalaşması üçün əsas amildir. Limana yaxın ərazidə azad iqtisadi zona yaradılır. Bu, limanın mühüm nəqliyyat qovşağı kimi tranzit və daşımalar üçün daha geniş imkanlarını təmin edəcək.

"Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin kəsişdiyi məkanda yerləşən liman ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rol oynayır. Ərazisi 117 hektar olan limanda yanalma körpüsü var. Limanın yükaşırma qabiliyyəti ildə 15 milyon tona, o cümlədən 100 min konteynerə bərabərdir. Konteyner meydançasında eyni vaxtda 1040 konteynerin yerləşdirilməsi və 64 soyuducu konteynerə xidmət göstərilməsi üçün xüsusi infrastruktur yaradılıb.

### Sərnişin daşımalarına başlanacaq

Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişinlərin daşınması üçün də işlər görülür və bu da turizmin inkişafına yeni nəfəs gətirəcək. "Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi ilə İsveçrənin "Stadler Rail Group" şirkəti tərəfindən BTQ ilə hərəkət edəcək sərnişin qatarları alınıb. Qatarların Türkiyədə hərəkəti üçün Gürcüstan-Türkiyə-Gürcüstan sərhədkeçid məntəqəsində vaqonda təkər cütlərinin eninə bazasının avtomatik olaraq 1520 millimetrdən 1435 millimetrə və əksinə dəyişdirilməsini nəzərdə tutan yeni qurğu quraşdırılıb.

Qatarda 9 sərnişin vaqonu və bir restoran var. Vaqonlar "standart", "komfort", "biznes" və "restoran" olmaqla 4 kateqoriyada istehsal edilib. Kateqoriyasından asılı olaraq, vaqonlar 10, 20 və 32 nəfərlikdir. Ümumilikdə qatarda bir istiqamətə 246 yer nəzərdə tutulub. Saatda 160 kilometr sürətlə hərəkət etmək imkanına malik qatardakı arabacıqlar pnevmatik asılqanla təmin edilib ki, bu da döngələrdə vaqonun tarazlığını tənzimləyir. Bundan başqa, hər bir vaqon dizel generatoru avadanlığı ilə təmin olunub. Bu da lokomotivdə cərəyan olmadıqda vaqonu və ondakı bütün elektrik enerjisi istifadəçilərini 24 saat fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Bütün bunlar onu deməyə əsas verir ki, ölkədə infrastruktur obyektlərinin yaradılması, multimodal logistika sistemlərinin təkmilləşdirilməsi etibarlı və təhlükəsiz nəqliyyat sisteminin fəaliyyəti, respublikamızın ərazisindən keçən nəqliyyat dəhlizlərinin inkişafı ölkəyə valyuta axınına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına, turizmin inkişafına, ümumilikdə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olacaq.

# Vüqar Rəhimzadə: "Prezident İlham Əliyev adını tarixə qalib Sərkərdə kimi qızıl hərflərlə yazdı"



**Artıq Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub. 30 ilə yaxın müddətdə dövlətimizin atdığı addımlar, aparılan sülh danışıqları Ermənistanın qeyri-konstruktiv mövqeyi, dünyanın ikili standartlara əsaslanan siyasəti ucbatından nəticəsiz qalsa da, 44 günlük savaşda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində rəşadətli Azərbaycan Ordusu işğalçı dövlətə tarixdə heç zaman unutmayacağı dərsi verdi. Vətən müharibəsi və postmünaqişə dövründə liderlik keyfiyyətləri, sərkərdəlik fəaliyyəti, diplomatik məharəti, dəqiq hesablanmış strateji və taktiki qərarları, Vətən qarşısındakı tarixi xidmətləri Ali Baş Komandan İlham Əliyevə xalqımızın məhəbbətini daha da artırıb.**

Bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında bildirib.

V.Rəhimzadə vurğulayıb ki, 2003-cü ildə ulu öndər Heydər Əliyev xalqa müraciətində İlham Əliyevə özü qədər inandığını və axıra çatdıra bilmədiyi işlərin məhz onun xalqa arxalanaraq həyata keçirəcəyinə əminliyini ifadə etmişdi. 2003-cü ildə keçirilən prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən İlham Əliyev andiçmə mərasimində Azərbaycanın daha qüdrətli, zəngin dövlətə çevrilməsi üçün Heydər Əliyev siyasətinin davam etdiriləcəyi vədini verdi. Son 18 ildə əldə olunan hər bir uğur verilən vədlərin reallıqda öz əksini tapmasıdır. İllər bir-birini əvəzlədikcə xalqımız 2003-cü ildə etdiyi seçimində yanılmadığını görür, Azərbaycanın daha xoşbəxt gələcəyinə inandığını fəxrlə və qürurla bir daha bəyan edir. Necə ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan Azərbaycanı ulu öndər Heydər Əliyevin görmək istədiyi şəkildə inkişaf etdirdi, dahi liderin vəsiyyətini yerinə yetirdiyi üçün bu gün xoşbəxtdir. Məhz Ulu Öndərin özünün layiqli siyasi varisinə vəsiyyət etdiyi ərazi bütövlüyümüz təmin olundu, Şuşamız azad edildi.

YAP Xətai rayon təşkilatının sədri bildirib ki, Azərbaycan xalqı öz taleyini zamanında məhz Prezident İlham Əliyevə etibar etməklə böyük müdriklik və uzaqgörənlik nümayiş etdirib: "Dövlət başçısının hər bir qərarı, atdığı hər bir addım Azərbaycanın milli maraqlarının daha etibarlı qorunmasını, ölkəmizin beynəlxalq nüfuzunun daha da artırılmasını, güclü dövlət və müasir cəmiyyət konsepsiyasının ardıcıl şəkildə reallaşdırılmasını, əhalinin rifah halının daha da yüksəldilməsini təmin etmək məqsədi daşıyır. İlk gündən "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" vədini verən Prezident İlham Əliyev son 18 ildə bunu əməli işi ilə təsdiqlədi. Hər zaman vətəndaşının yanında olan ölkə Prezidenti insan amilinə verdiyi dəyərlə bu gün sivil dünyanın diqqətindədir. Azərbaycanın adının dünyanın ən islahatçı, xoşbəxt ölkələri sırasında yer alması da təsadüfi deyil. Bütün bunlar dövlətimizin daha da güclənməsinə, xalqımızın rifahının yüksəlməsinə xidmət edən addımlardan irəli gəlir. Azərbaycan bu gün dünyada, həmçinin sosial dövlət kimi nüfuz qazanıb, yeni sosial və iqtisadi çağırışların müzakirəsi üçün ideal məkan kimi tanınır".

V.Rəhimzadə qeyd edib ki, postmünaqişə dövrünün reallıqlarına diqqət yetirdikdə Prezident-xalq birliyinin sarsılmazlığını, daha da möhkəmləndiyini görürük: "Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin müasir tələblərə uyğun bərpası və yenidən qurulması üçün tapşırıqlar verir, qarşıdakı hədəflərin gerçəkləşməsi məqsədilə inkişaf konsepsiyası təqdim edir. Təkcə son bir ay ərzində Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərə (Tərtərin Suqovuşan və Talış kəndləri, Cəbrayıl, Xocavənd, Füzuli, Zəngilan, Qubadlı rayonları) 8 dəfə səfər edib. Bundan başqa, Vətən müharibəsi dövründə ciddi dağıntılara məruz qalmış Bərdə və Tərtərin müxtəlif yaşayış məntəqələrində olub. Dövlət başçısının səfərlərinin əsas məqsədi bərpa və yenidənqurma işləri ilə yerində tanış olmaq, prosesi şəxsi nəzarətdə saxlamaq, işlərin yüksək sürət və keyfiyyətlə, müasir yanaşma və meyarlar nəzərə alınmaqla aparılmasını təmin etməkdir".

YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, ermənilərin xarabalığa çevirdikləri ərazilər bu gün Prezident İlham Əliyevin fasiləsiz iş cədvəli və yorulmaz fəaliyyəti, qarşıya qoyduğu hədəflərə çatmaq üçün yürütdüyü məqsədyönlü siyasət nəticəsində tanınmaz dərəcədə dəyişir, Qarabağ və Şərqi Zəngəzurun yeni və müasir portreti yaradılır: "Azad edilmiş ərazilərin hər birində yerli ictimaiyyət nümayəndələri ilə silsilə görüşlər dövlət başçısının orada yaşamış yerli sakinlərin fikirlərinə nə qədər həssas yanaşmasının, mütərəqqi ideyaları yerində və uğurla işə çevirməsinin örnəklərini yaradıb. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsi döyüşçülərinə xüsusi həssas yanaşmaları ilə hamıya şəxsi nümunələr göstərirlər. Bu görüşlərdə İlham Əliyevin ona ünvanlanan çoxsaylı təşəkkürlərə cavabı hər birimizdə qürur hissi yaradır. Ölkə Prezidenti bildirir ki, mənim üçün ən böyük mükafat keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur. Artıq keçmiş məcburi köçkünlər ümidlə, qürurla yaşayırlar. Bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaq, yenidən bərpa etməkdir. Prezident İlham Əliyev Azərbaycan xalqının arzularını reallığa çevirən, onu inamla gələcəyə doğru aparan, xalqın rəğbət bəslədiyi və ardınca getdiyi Liderdir. 44 günlük İkinci Qarabağ müharibəsində böyük Zəfərimiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin adını tariximizə qalib Sərkərdə kimi qızıl hərflərlə yazdı. Bu gün dövlət başçısı işğaldan azad edilmiş ərazilərimizə böyük qürurla, qalib Ali Baş Komandan kimi səfər edir, yeni reallıqları diktə edən tərəf kimi bu torpaqlardan işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə mesajlarını ünvanlayır. Məhz bütün bunlara görə dövlətinin, xalqının gələcəyini düşünən Liderə milyonların sevgisi şəksizdir".




# YAP-ın Xəzər, Qaradağ, Nizami və Sabunçu rayon təşkilatlarının nümayəndələri Hərbi Qənimətlər Parkını ziyarət ediblər

**Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının Xəzər, Qaradağ, Nizami və Sabunçu rayon təşkilatlarının nümayəndələri 8 Noyabr - Zəfər Günü münasibətilə Hərbi Qənimətlər Parkını ziyarət ediblər.**





Qeyd edək ki, Hərbi Qənimətlər Parkı Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayiş olunması məqsədini daşıyır.



Ziyarət zamanı YAP-ın rayon təşkilatlarının nümayəndələrinə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun əsgərlərinin qəhrəmanlığı, o cümlədən ordumuz tərəfindən məhv edilmiş və hərbi qənimət kimi ələ keçirilmiş Ermənistan silahlı qüvvələrinə məxsus müxtəlif tipli hərbi texnikalar, silahlar, döyüş postları və müdafiə sədləri barədə ətraflı məlumat verilib. Ziyarətçilər, həmçinin Parkdakı eksponatların arasında Silahlı Qüvvələrimizin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdükləri 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan və üzərində "Qarabağ Azərbaycandır!" şüarı əks olunan kompozisiya, Ermənistan tərəfindən törədilən müharibə cinayətləri, dinc sakinlərin qətlə yetirilməsi və yaralanması barədə faktlar, düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İskəndər-M" raketinin qalıqları ilə tanış olublar.

YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov, YAP Nizami rayon təşkilatının sədri Ramil Vəliyev, YAP Sabunçu rayon təşkilatının sədri Misirxan Vəliyev, YAP Qaradağ rayon təşkilatının əməkdaşı Vüsal Yusifov və digərləri Hərbi Qənimətlər Parkını Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Qələbəsinin əyani nümunəsi kimi dəyərləndiriblər.

Ziyarətçilər Hərbi Qənimətlər Parkından yüksək təəssüratlarla ayrılıblar.

# YAP Lənkəran rayon təşkilatı "Dəmir yumruq" adlı fləşmob keçirib



Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatı tərəfindən 8 Noyabr Zəfər Gününə həsr olunan "Dəmir yumruq" adlı fləşmob keçirilib. SİA-nın verdiyi məlumata görə, Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin qarşısında keçirilən fləşmoba 200 nəfər fəal gənc qatılıb. Fləşmobda Qələbəmizin simvolu olan "Dəmir yumruq" işarəsi əks olunub.

# Heydər Əliyev



## Fondunun layihələri çərçivəsində ziyarətgahlarımız yenidən qurulur

Bütün dünyada, eləcə də islam dünyasında böyük hörmətə, nüfuza malik olan, prinsipial və ədalətli mövqeyi ilə seçilən Azərbaycanın multikultural dəyərləri dünyaya örnək, nümunədir. Əgər Azərbaycanda sovet məkanında yaşadığımız illərdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, hazırda onların sayının 2200-dən artıqdır. Bu gün multikultural münasibətlərin davamlılığı, onun bugünkü inkişafı, bilavasitə, dövlət dəstəyindən qaynaqlanır. Dövlət başçısı İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, biz nəinki ölkə daxilində millətlərarası və dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyirik, həll edirik, biz dünyaya nümunə də göstəririk: "Bax, belə inkişaf etmək lazımdır. Multikulturalizm alternativsiz bir hərəkat olmalıdır. Hesab edirəm ki, biz bu nümunəni göstərərək, başqa yerlərə də öz təsir imkanlarımızı genişləndiririk".

Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir. Ölkə başçısının göstərişi ilə bütün əsas dini abidələr təmir olunub. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır.

### ŞAMAXIDAKI PİRSAAT BABA ZİYARƏTGAH-MƏSCİD KOMPLEKSİNİN BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI OLUB

Tarixi-dini abidələrin qorunması, təmir və bərpasına Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da öz töhfəsini verir. İstər ölkəmizdə, istərsə də xaricdə dini abidələrin bərpası üzrə layihələr reallaşdırır. Bunlardan biri də Şamaxı şəhərinin girəcəyində, Bakı-Şamaxı-Yevlax avtomobil yolunun kənarında yerləşən Pirsaat Baba ziyarətgahıdır. Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurmadan sonra açılışında iştirakı dini abidələrimizə dövlətimiz tərəfindən göstərilən diqqət və qayğının nümunəsidir. Şamaxı rayonunda Pirsaat çayının sahilində yerləşən Pirsaat Baba ziyarətgahı əhalinin ən çox ziyarət etdiyi müqəddəs ocaqlardan biridir və 2019-cu ildə Şamaxıda baş verən zəlzələ zamanı ziyarətgahın divarlarında çatlar əmələ gəlmişdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2020-ci ildə burada bərpa-yenidənqurma işlərinə və yeni məscid binasının inşasına başlanılmışdır. Məsciddə ibadət zalı ilə yanaşı, mərasim zalları da inşa olunub.



Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın İsmayıllıya səfəri çərçivəsində Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olublar. Qeyd edək ki, 2019-cu ildə Birinci vitse-prezident Mehriban Əliyeva İsmayıllı rayonunun Lahıc qəsəbəsində səfərdə olarkən sakinlər Bədöyün məscidinin təmiri ilə bağlı müraciət etmişdilər. Birinci vitse-prezident məsciddəki vəziyyətlə tanış olmuş və burada əsaslı təmir işlərinin aparılması barədə tapşırıq vermişdi. 1791-ci ildə inşa edilən Bədöyün məscidində və ətraf ərazilərdə Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa-təmir işləri aparılıb. Görülən işlər nəticəsində məscid orijinal formasına uyğun bərpa edilib. Məscidin minarəsi yenidən qurulub, dəstəmazxana inşa olunub.

Qeyd edək ki, Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihələr çərçivəsində bölgələrdəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması uğurla reallaşır.

### AZƏRBAYCAN İŞĞALDAN AZAD ETDİYİ ƏRAZİLƏRDƏ DƏ DİNİ ABİDƏLƏRİN TƏMİR VƏ BƏRPASINA BAŞLAYIB

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Azərbaycanda dövlət-din münasibətlərinin necə qurulduğuna nəzər salarkən, vurğulayıb ki, Azərbaycanda dövlət dini məsələlərə qarışmır, əksinə, çalışır ki, kömək göstərsin: "Azərbaycanda din dövlətdən ayrıdır. Ancaq dövlət dindarlara daim dəstək və dayaq olur. Bizim bütün tarixi məscidlərimiz dövlət tərəfindən əsaslı şəkildə bərpa edilibdir". Ölkəmizdə həm məscidlərimiz, həm də qeyri-xalqların dini abidələri qorunur və abadlaşır. Azərbaycan Prezidenti çıxışlarının birində vurğulayıb ki, bütün başqa dinlərin məbədləri bizim üçün əzizdir və bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir". Abadlaşdırılmış Pravoslav Dini-Mədəni Mərkəzi, Katolik məbədi Azərbaycanda mövcud olan münasibətin təzahürüdür. Müxtəlif mədəniyyətlərin və dinlərin nümayəndələrinin, etnik azlıqların harmoniya halında yaşadığı Azərbaycan uğurlu inkişaf yolundadır.

Azərbaycan işğaldan azad etdiyi ərazilərdə də dini abidələrin təmir və bərpasına başlayıb. Ərazilərdə abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilib, bəziləri isə erməniləşdirilib. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlayan ermənilərin vandallığı bütün dünyaya göstərildi. Dağıdılan dini abidələrimizə nəzər salarkən Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır.

Erməni barbarlığının nəticəsi olaraq dağıdılan abidələrimiz qısa bir zamanda bərpa olunacaqdır. İşğaldan azad olunmuş ərazilərdəki abidələrin bərpası, təmiri və yenidən qurulması işlərinə artıq start verilib.

***Nəzakət ƏLƏDDİNQIZI***



# Düzəlməyən bükülü bel - Ermənistan terrorçu və qatillərin ümidinə qalıb




**Azərbaycan torpaqlarının işğaldan təmizlənməsinin birinci ildönümünü qeyd edəcək. Zəfər günü bir tarixə dönüb. Bu, Azərbaycanın azadlığı, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizənin göstəricisidir. Öz torpaqlarını işğaldan təmizləyən Azərbaycanda ruh yüksəkliyi yaşanır. İşğalçı Ermənistanda isə elə davranırlar ki, elə bil həmin ərazilər onlara məxsus olub. İndi də ermənilər onun sarsıntılarını, depressiyasını yaşayır. Ölkədə kütləvi psixoloji kompleks yaşanır.**

Ermənistan hakimiyyəti, erməni diasporu və lobbisi uzun illərdir saxta ideya ilə bu etnik qrupu formalaşdırıb, qonşular düşmən kimi təqdim ediliblər. Bütün baş verənlərə baxmayaraq, erməni saxtakarlığı davam edir. Bu günlərdə mətbuatda 2022-ci ilin martında Xankəndində "erməni abidələrinin" Azərbaycan tərəfindən "albanlaşdırılmasına" qarşı "beynəlxalq konfrans"ın keçirilməsi planlaşdırılıb. İcazəsi olmadan Azərbaycan ərazisində belə tədbirin keçirilməsini hansı dövlət təşkil edəcək? Belə bir tədbirin, "beynəlxalq konfransın" Azərbaycan ərazisində keçirilməsi beynəlxalq hüquqa və normalara ziddir. Bu baxımdan həmin tədbirdə iştirak edənlər Azərbaycanın dövlət sərhədini pozmuş sayılacaqlar və s. Erməni düşünənləri bu saxta ideya və qanunazidd tədbiri keçirməyə cəhdlə psixoz vəziyyətdə olan erməni ictimaiyyətini ağır mənəvi sarsıntıdan xilas etməyə səy göstərirlər. Ancaq bu zaman yenə onlara yalan təbliğ edilir. Deməli, baş verənlər saxtakarlıqdan əl çəkmək üçün bu etnosa hələ də təsir etməyib.

Qeyd edək ki, alban memarlığının nümunələri Azərbaycan Respublikası, İran, indiki Ermənistan və Dağıstan ərazilərində aşkarlanaraq tədqiq edilib. Həmin abidələrdən dövrümüzə çatan ən maraqlı nümunələr müdafiə tipli qalalar, istehkamlar və dini xarakterli tikililər olan kilsələr, monastırlardır. Türk tayfalarının alban dövlətinin idarə edilməsi, onun mədəniyyəti və memarlığının inkişafında danılmaz rolu olub. Bu baxımdan tarixçilər alban memarlığından danışarkən "Alban-türk memarlığı" ifadəsini işlədirlər. Heç kimə sirr deyil ki, o dövrün Albaniyasındakı tayfaların bir qismi xristianlığı qəbul edərək xristianlaşmış, bir hissəsi isə sonradan İslamı qəbul etmişdi. Alban mədəni irsinə məxsus müdafiə tikililərindən öz möhtəşəmliyi ilə bu gün də seçilən Dərbənd qalası, Cavanşir qalası, Çıraqqala və başqalarını göstərmək mümkündür.

Azərbaycanda Qafqaz Albaniyası dövrü abidələrinin əksəriyyəti öz ilkin formasını qoruyaraq dövrümüzə çatmışdır. Bu abidələr içərisində Kəlbəcər rayonundakı Xudavəng məbəd kompleksi (XIII əsr), Laçın rayonunun Kosalar kəndindəki Ağoğlan məbədi (IX əsr), Xocavənd rayonunun Sos kəndindəki Amaras monastrı (IV əsr) və keçmiş Ağdərə rayonundakı Müqəddəs Yelisey məbədi (IV əsr), Vəng kəndindəki Qandzasar məbədi (XIV əsr), Qərbi Azərbaycan (indiki Ermənistan Respublikası) ərazisindəki Haqapat məbədi, Qoşavəng məbədi, Ağtala məbədi, Tatev məbədi, Uzunlar məbədi, Yenivəng məbədi, Sənain məbədi alban memarlığının dövrümüzə qədər çatmış ən gözəl nümunələridir. Sirr deyil ki, bu istiqamətdə çox ciddi və təkzibedilməz tarixi faktlar var. Odur ki, ermənilərin və havadarlarının Xankəndində keçirməyi planlaşdırdıqları "beynəlxalq konfrans" saxtakarlığa, yalana xidmət edəcək. Bu tədbir döyüşləri uduzan erməni etnosunun ovqatının yüksəlməsinə çətin müsbət təsir edə. Çünki beynəlxalq ictimaiyyət və erməni cəmiyyəti bu sayaq yalanlardan artıq doyub.

Bu arada bədbin vəziyyətə düşən erməni cəmiyyətini dirçəltmək üçün istifadə edilən başqa bir tədbirin bu il dekabrın 11-də ABŞ-da keçirilməsi nəzərdə tutulub. İlk dəfə keçiriləcək bu "erməni festivalında" "Qarabağ məhsulları" nümayiş etdiriləcək. "Festivalda" Ermənistan mədəniyyəti və məhsullarının, Qarabağdan olan "erməni məhsullarının" təqdimatı planlaşdırılıb. Ermənilər psixoloji sarsıntıdan və psixoz vəziyyətdən saxtakarlıq üzərində qurulan təbliğatla yanaşı, cinayətkarı da alqışlamaq, qonaq etməklə çıxmağa çalışırlar.

Ötən həftənin sonunda Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirən ASALA erməni terror qruplaşmasının üzvü Xambik Sasunyan Ermənistana gedib.

Xatırladaq ki, Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arıkanı qətlə yetirdiyinə görə ömürlük həbs cəzasına məhkum edilmiş erməni Xambik Sasunyan azadlığa 2019-cu ilin dekabrında Kaliforniya ştatı Məhkəməsinin qərarı ilə azadlığa buraxılıb. O,1982-ci il yanvarın 28-də səhər saatlarında tərəfkeşi ilə birlikdə avtomobili işıqforda dayanan Türkiyənin baş konsulu Kamal Arıkana odlu silahdan atəş açaraq qətlə yetirib. ABŞ-ın o vaxtkı Prezidenti Ronald Reyqan hadisəni terror aktı adlandıraraq qətli mühakimə edib. Erməni terrorçu ömürlük azadlıqdan məhrum olunmuşdu. 2006 və 2010-cu illərdə ABŞ məhkəməsi Xambik Sasunyanın əfv edilməsi ilə bağlı müraciəti təmin etməyib. 2016-cı ildə Kaliforniyanın Əfv Komissiyası onu əfv etsə də, ştatın qubernatoru Cerri Braun Xambik Sasunyanın cəmiyyət üçün təhlükəli olacağını əsas göstərərək qərara veto qoymuşdu.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bu ilin aprelində Xambik Sasunyanın azadlığa buraxılması ilə bağlı bunları bildirmişdi: "Bizə tarix dərsi verməyə çalışanların ASALA terroruna göz yummaları tamamilə ikiüzlülükdür". Erməni terrorçunun vəkili onun azadlığa buraxılması barədə vəsatət verib. Kaliforniya ştatının Məhkəməsi vəsatəti təmin edib. Türkiyənin baş konsulunun qatili şərti cəza ilə azadlığa buraxılıb. Müharibədən sonra beynəlxalq caninin İrəvana gətirilməsi və onun erməni ictimaiyyətinə təqdim edilməsi Ermənistanda bu təbliğatı aparanların terrorçu mahiyyətindən irəli gəlir. Təəssüf ki, Azərbaycanda terrorçu axtaranlar Türkiyə diplomatının qatilinin əl-qolunu sallayaraq Ermənistana səfər etməsinə göz yumurlar...

Beləliklə, baş verənlərdən dərs almaq, nəticə çıxarmaq böyüklərə aid xüsusiyyətdir. Cılızlar isə bütün hallarda cığallıq, saxtakarlıq edir, özlərini böyük göstərməyə çalışırlar.

***Sədrəddin İsmayılov***



# Roman Boriskin: “Azərbaycan rusları da Qarabağ və Qələbə üçün döyüşdü və şəhidlər verdi”

**Azərbaycan Rus Gəncləri Assosiasiyası (ARMA) rus xalqının ölkənin ictimai həyatında fəal iştirak etməkdə maraqlı olan 3 minə yaxın nümayəndəsini birləşdirir. ARMA fəallarına tez-tez öz fikirlərini rahat ifadə etdikləri, vətəndaş mövqeyi nümayiş etdirdikləri və Azərbaycanla Rusiya arasında münasibətlərin inkişafına töhfə verdikləri tədbirlərdə rast gəlmək olar. Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərini geri qaytardığı 2020-ci il rus gəncləri üçün xüsusi il oldu. 44 günlük Qarabağ müharibəsi zamanı ARMA fəalları informasiya müharibəsində fəal iştirak etmiş, cəbhəyə bağlamalar göndərmiş və bir çox başqa mühüm işlər görmüşlər.**



ARMA fəallarının son təşəbbüslərindən biri də 2021-ci ilin yayında iki ölkə arasında dostluq münasibətlərini daha da inkişaf etdirmək, müxtəlif sahələrdə əlaqələri möhkəmləndirmək məqsədi daşıyan ”Azərbaycan və Rusiya Xalqlarının Dostluq Klubunun” yaradılması olub. ARMA-nın rəhbəri Roman Boriskin ”Moskva-Bakı”ya müsahibəsində yeni klub və 2-ci Qarabağ müharibəsi zamanı rus gənclərinin fəaliyyəti barədə danışıb.

***- Son 1 ildə ARMA-nın nümayəndələri Azərbaycanda keçirilən aksiyalarda, tədbirlərdə iştirak edərək müxtəlif ictimai təşəbbüslər yaradaraq böyük fəallıq nümayiş etdiriblər. Rus gəncləri arasında fəallar haqqında məlumat verə bilərsinizmi?***

- Məncə, kimisə ayırmaq düzgün deyil. Hər kəs mümkün qədər faydalı olmağa çalışır. Azərbaycan Rus Gəncləri Assosiasiyası 2004-cü ildən fəaliyyət göstərir. Yarandığı andan bu günə qədər rus mədəniyyətinin, rus icmasının bir hissəsi olmaq istəyən hər kəsi birləşdirdi. Biz çox şadıq ki, Azərbaycanda ənənəvi bayramlarımızı qeyd edə bilirik, mədəniyyətimizdən açıq danışırıq, öz dilimizdə danışırıq, təhsil alırıq.

Bütün fəallarımız öz layihələrini yaradırlar, komandalara toplaşırlar, vətəndaş mövqeyini nümayiş etdirirlər. Onlar Azərbaycanın rus icmasından, ”Rossotrudniçestvo”dan, gənclərlə işləyən bir sıra yerli ictimai təşkilatlardan dəstək alırlar. Bütün fəallar istedadlı uşaqlardır və tezliklə özlərini müxtəlif sahələrdə peşəkar və mütəxəssis kimi göstərəcəklər.

Bu yaxınlarda ARMA fəalları təşəbbüs göstərərək müxtəlif ictimai təşkilatların nümayəndələrinin, siyasətçilərin, jurnalistlərin, mədəniyyət işçilərinin və bir çox başqa şəxslərin iştirak etdiyi ”Azərbaycan və Rusiya Xalqlarının Dostluq Klubu”nu təşkil etdilər. Klub təkcə gəncləri Rusiya-Azərbaycan dialoqu ətrafında birləşdirmək üçün deyil, həm də gənc fəalların və gələcək diplomatların ekspertlərə və siyasətçilərə birbaşa olaraq müvafiq suallar verə bilməsi üçün yaradılıb.

***- Bir həftədən sonra noyabrın 8-də Qələbə günü qeyd olunacaq. İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın rus gəncləri üçün hansı hadisələrlə yadda qaldı?***

- İl çox tez keçdi. Sanki dünən bütün Azərbaycan xalqı Şuşa şəhərinin, bütün Qarabağın işğaldan azad edilməsini paytaxt küçələrində şadlıq hissi ilə qeyd edirdi. Bütün hamı sevinirdi - azərbaycanlılar, ruslar, yəhudilər, Azərbaycanda yaşayan bütün digər millətlərin nümayəndələri.

***Müharibənin bütün 44 gününü xatırlamağa dəyər. Vətənin azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizi hər zaman ehtiramla yad edəcəyik. Onların arasında rus oğlanları da vardı - Denis Pronin və Dmitri Solntsev. İkinci Qarabağ müharibəsindən sağ-salamat qayıdan rus qəhrəmanlarını- Buzanov qardaşlarını, Vladislav Karçaşkin, Denis Quzlayev, Aleksandr Kornev, Pavel Zorin, Oleq Sapunkov, Vaqif Pçelkin, Qaleyev qardaşlarını da qeyd etmək istərdim. Azərbaycanda hər kəs onlarla fəxr edir, onlara böyük hörmətlə yanaşır. Bu, tolerantlığın və multikulturalizmin real təzahürü deyilmi?***

Müharibə günlərində Azərbaycan Rus Gəncləri Assosiasiyasının fəalları özlərini informasiya müharibəsində də göstərdilər. Telegram kanalları yaratdılar və Qarabağ münaqişəsi ilə bağlı şəbəkədə gedən bütün xəbərləri təhlil etməyə başladılar. Hər bir xəbərin etibarlılığı yoxlanıldı və saxtakarlıq aşkar edilərsə, ictimaiyyətə məlumat verilirdi. Bundan əlavə, komandamız hər gün müxtəlif ölkələrdən yüzlərlə mesaja cavab verib, münaqişənin tarixi ilə bağlı etibarlı məlumatlar və faktlar təqdim edib. Azərbaycanın rus icması ilə birlikdə fəallarımız bağlamaların yığılıb cəbhəyə göndərilməsində iştirak ediblər.

Bütün 44 gün bizim üçün gərgin keçdi, ona görə də Prezident İlham Əliyev müharibənin başa çatdığını, uzun illər işğal altında olan torpaqların azad olunduğunu bildirəndə sevincimizi təsvir etmək çox çətindir.

***Tərcümə - Elçin Bayramlı***



# EKSPERT:

## “Bu, terrorçu qrupların dolayı yolla maliyyələşdirilməsidir”

“Zahirən o qədər də mürəkkəb olmayan məsələ kimi görünsə də, bu gün Ermənistanın hələ sülhməramlıların və qanunsuz erməni silahlı dəstələrinin nəzarəti altında olan ərazilərə müəyyən maliyyə yardımlar göstərməsi çox ciddi problemlərdən biridir. Bu cür hərəkətlərlə onlar göstərməyə çalışır ki, Azərbaycan bütün əraziləri üzərində, o cümlədən Xankəndi və onun ətrafında olan yerlər üzərində tam suveren hakimiyyətinin bərqərar olmasına mane törədən bir vəziyyət var”. Bu fikirləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin Baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Ekspertin sözlərinə görə, eyni zamanda, Ermənistanın Azərbaycanın mərkəzi hakimiyyətinin icazəsi və xəbəri olmadan yuridik olaraq Azərbaycana məxsus ərazilərə müəyyən iqtisadi yardımlar yönəltməsi orada yeni-yeni problemlərə meydan açır və baza yaradır: ”Belə ki, həmin ərazilərdə Ermənistan maliyyəsinin son təyinatının nədən ibarət olduğunu bu gün demək olduqca çətindir. Çox təəssüf ki, bütün bu işlərə görə birmənalı şəkildə birbaşa məsuliyyət daşıyan Rusiya sülhməramlıları da nə göstərilən maliyyə yardımlarının kökü ilə bağlı bir açıqlama verir, nə də onların gəldiyi ərazidə təyinatı ilə bağlı hər hansı bir açıqlama vermirlər. Halbuki, Ermənistandan bizim ərazilərimizə gələn yardımların nədən ibarət olduğunun sona qədər araşdırılması, hətta qarşısının alınması sülhməramlıların vəzifəsidir. Ora göndəriləcək hər hansı yardım rus sülhməramlıları ilə Azərbaycan arasında baş verməli olan bir prosesdir”.

A.Quliyev vurğulayıb ki, çox ciddi qorxu və təhlükələr var ki, Ermənistanın maliyyə, iqtisadi yardım adı ilə Xankəndinə yönəltdiyi vəsait orada insanların humanitar ehtiyaclarının qarşılanmasından daha çox gələcəkdə separatçılıq ocaqlarının daha da aktivləşdirilməsinə yönəldilir: ”Başqa sözlə desək heç istisna deyil ki, Ermənistan yardım adı altında əslində bu gün Qarabağda hələ də qalmaqda davam edən qanunsuz silahlı dəstələrin maliyyələşdirilməsini həyata keçirir. Ona görə də Ermənistanın Qarabağa Azərbaycanın yardımı və iştirakı olmadan maliyyə yardımı göndərməsi yolverilməzdir. Bu, Azərbaycanın daxili işlərinə müdaxilədir. Əslində, bu qanunsuz hərbi birləşmələrin və terrorçu qrupların dolayı yolla maliyyələşdirilməsidir. Bunun məsuliyyətinin sülhməramlıların üzərində olmasını onlar unutmamalıdırlar və Azərbaycanın bu narahatlığını bölüşməlidirlər”.

***Aysel Məmmədova***

# Filmlərdə onkoloji xəstələrin öldürülməsi düzgündür? - PSİXOLOQ İZAH ETDİ

“Bildiyimiz kimi, insan həm sosial, həm fizioloji, həm də psixoloji baxımdan kompleks dəyərləndiriləcək bir varlıqdır. Bütün xəstəliklərin fizioloji göstəriciləri olduğu kimi, psixoloji səbəbləri də mövcuddur. Əsasən də onkoloji xəstəliklərdə araşdırmalar göstərir ki, istər yaranma prosesində, istərsə də müalicə mərhələsində psixoloji sferanın əhəmiyyətli təsiri vardır”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Ləman Rzayeva deyib.



Onun sözlərinə görə, onkoloji xəstəliklə mübarizə aparan insanların əksəriyyətində yanaşı olaraq depressiyaya, təşviş pozuntusu kimi hallar qeydə alınır: ”Onsuz da ağır bir fizioloji etapdan keçən xəstələrin ehtiyacı olan əsas məqam psixoloji sağlamlığına diqqət edilməlidir. Onların psixologiyasına mənfi təsir göstərən əsas məqamlardan biri də televiziya və filmlərdə onkoloji xəstələrin acınacaqlı sonunun ölümün verilməsidir. Bu kimi ssenariləri görən xəstə yaşadığı çətinliklərdən əlavə bir də psixoloji olaraq gücünü itirir və mübarizə üçün inamı azalır. Filmlərdə göstərilən ağrılı müalicə prosesi, faciəli ölümlər yeni diaqnoz qoyulmuş və ya sağalma mərhələsində olan xəstədə depressiv halları artırır. Sağlam yanaşma ilə xəstəyə keçirdiyi xəstəlik uyğun dillə izah olunmalıdır. Çünki əksinə gizlədilməsi də xəstədə inamı azaldır, cavabı naməlum suallar biraz daha təşvişini artırır. Yaxınların dəstəyi, fizioloji müalicələrlə yanaşı psixoloji dəstək ilə sağalma prosesi həm sürətlənəcək, həm də daha rahat keçəcək”.

***Ayşən Vəli***

# Diqqət:

## Kitab və dərsliklərin idxalı və satışı ƏDV-dən azad edilir

**Dünən Milli Məclisdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən Milli Məclisə daxil olmuş kitab və kağız məhsullarının idxalının və satışının ƏDV-dən azad olunması barədə Vergilər Məcəlləsinə ediləcək dəyişikliklərin ictimai müzakirəsi təşkil olunub.**

SİA-nın məlumatına görə, müzakirələrdə Milli Məclisin deputatları, Azərbaycan nəşriyyat evlərinin, kitab satışı şəbəkələrinin, media qurumların nümayəndələri iştirak edir. Qanun layihəsinə görə, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən KİV məhsullarının və kitabların (elektron kitablar istisna olmaqla), habelə dərslik komplektlərinin idxalı və satışı, həmin malların (məhsulların) istehsalı (nəşri) ilə bağlı rulon və ya vərəqə şəklində kağızın idxalı və satışı, mətbu KİV məhsullarının və kitabların (o cümlədən elektron kitabların), habelə dərslik komplektlərinin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla) ƏDV-dən azad olunur.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi Azərbaycan Prezidentinin bu sahəyə diqqətinin və qayğısının növbəti bariz nümunəsidir.



Bu sahədə ƏDV-nin ləğv edilməsi kitab və digər çap məhsullarının, dərsliklərin qiymətinin aşağı düşməsinə səbəb olacaq, ölkədə çap sənayesinin inkişafını təşviq edərək yeni iş yerlərinin və sahibkarlığın inkişafına təkan verəcək. Çıxış edənlər dövlət başçısının bu təşəbbüsünü alqışlayıblar.

Müzakirədə həmçinin oxucularda kitaba marağın artırılması, çap məhsullarının keyfiyyətinin artırılması və kitabın populyarlaşması üçün atılacaq addımlar müzakirə edilib.

Qeyd edək ki, qüvvədə olan Vergi Məcəlləsinə əsasən, hazırda ümumtəhsil müəssisələri, habelə peşə təhsili müəssisələri üçün dərslik komplektləri (iş dəftərləri istisna olmaqla) və uşaq ədəbiyyatının istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti ƏDV-dən azaddır.

# Əbədi qəlbimizdədir vətənin mərd oğulları!

## Qusarda Vətən müharibəsi şəhidi Ramin Nurəhmədovun xatirəsi anılıb

Qusar rayonunun Nəcəfkənd kəndində 44 günlük Vətən müharibəsinin şəhidi Nurəhmədov Ramin Marif oğlunun ildönümü mərasimi keçirilib. Anım mərasiminə YAP Qusar rayon təşkilatının fəalları, şəhid ailəsinin üzvləri və kənd ictimaiyyətinin nümayəndələri qatılıb. Mərasim iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət edib və tər gül dəstələri düzüb, ruhuna dualar oxumaqla xatirəsini yad ediblər.





Sonra şəhidin ailəsi ziyarət olunub, səmimi söhbət əsnasında onları narahat edən problemlər dinlənilib. Şəhidin atası Marif Nurəhmədov onlara göstərilən diqqət və qayğıya görə, ölkə rəhbərliyinə öz minnətdarlıqlarını bildirib. Qeyd edək ki, Vətən müharibəsində Xocavənd və Şuşa döyüşləri zamanı şəhid olmuş Ramin Nurəhmədov "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

*Nəzakət Ələddinqızı*



## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailələrini ziyarət ediblər

Biləsuvar rayonunda ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda mərdliklə döyüşən və qəhrəmancasına həlak olan Vətən övladlarının şəhidlik zirvəsinə yüksəlməsinin ildönümü ilə əlaqədar olaraq silsilə tədbirlər keçirilir. Milli Məclisin deputatı Bəhruz Məhərrəmov və Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov, təşkilatın əməkdaşları və fəalları 2 noyabr 2021- ci il tarixdə 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Vətən Müharibəsi Qəhrəmanı şəhid Babayev Nihad Akif oğlunun ildönümü ilə əlaqədar ailəsini ziyarət etmiş və məzarı üzərinə gül dəstələri düzmüşlər.



Daha sonra Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov, təşkilatın əməkdaşları və fəalları Aşağı Cürəli kəndindən olan şəhid Mirzəyev Orxan Əli oğlunun ildönümü ilə əlaqədar ailəsini ziyarət etmiş və məzarı üzərinə gül dəstələri düzmüşlər.

Allah rəhmət eləsin!

*Rəfiqə*

## Şəhid Nəzir Osmanovun şəhadətinin ildönümü ilə əlaqədar xatirəsi anılıb

Yeni Azərbaycan Partiyası Qax rayon təşkilatının fəalları, rayon icra hakimiyyətinin rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, N saylı hərbi hissənin zabit və əsgər heyəti, rayon ictimaiyyətinin nümayəndələri 44 günlük Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Qax rayonu Qıpçaq kəndindən şəhid Osmanov Nəzir Rahib oğlunun şəhadətinin ildönümü ilə əlaqədar məzarını ziyarət etmiş, məzarı üzərinə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad etmişlər. Anım mərasimində şəhid Nəzir Osmanovun ailəsinə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə (ölümündən sonra) verilən "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalları təqdim edilib.





Daha sonra partiya fəalları şəhidimizin ailəsinə baş çəkərək, ailə üzvlərinə dərin hüznlə başsağlığı veriblər. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

*ZÜMRÜD BAYRAMOVA*

## Şəmkirdə şəhidlərin ildönüm mərasimləri keçirilib

YAP Şəmkir rayon təşkilatının rəhbərliyi və fəalları İkinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə ucalmış igidlərin - Şəmkir şəhər şəhidi Zamanov Mətləb Nizami oğlunun, Yuxarı Seyfəli kənd şəhidi Məmmədov Münasib Elman oğlunun və Qılıncbəyli kənd şəhidi Abbasov Tural Fəzayıl oğlunun il mərasimlərində iştirak ediblər.





İlk öncə şəhidlərimizin məzarları ziyarət olunub və üstünə gül-çiçək dəstələri düzülərək ruhlarına dualar oxunub. Ziyarətçilər şəhidlərin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar. Mərasimdə hər üç şəhidin keçdiyi döyüş yollarından danışılıb, göstərdikləri şücaət və qəhrəmanlıqlardan söz açılıb. Şəhid yaxınları və ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildiriblər.

*Rəfiqə*

## Xəzər rayonunda şəhid qardaşların anım günü keçirilib

Noyabrın 2-də 44 günlük Vətən Müharibəsində şəhid olmuş qəhrəman oğullarımızdan olan - Şəhid Məmmədzadə Bəhram və Məmmədzadə İman qardaşlarının Xəzər rayonunda anım günü keçirilib. SİA xəbər verir ki, anım mərasimində Milli Məclisin deputatı Rauf Əliyev, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, şəhidin doğmaları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.





# Qarabağımıza qovuşduğumuz Zəfər Günü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə hər il 27 sentyabr Anım, 8 noyabr isə Zəfər bayramı günləri kimi qeyd ediləcək. Bu gün artıq bütün Azərbaycan xalqı, bütün türk dünyası Zəfər Günümüzü böyük coşqu, qürurla qarşılamaqdadır.**

***HƏMİD PƏNAHOV,***
***YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***



Çünki sentyabrın 27-dən başlayan və 2020-ci il noyabrın 10-da Rusiya Federasiyası Prezidenti Vladimir Putinin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın birgə bəyanat imzalaması Ermənistanın hərbi təslim aktı ilə başa çatan 44 günlük Vətən müharibəsi Zəfərlə başa vuraraq Qarabağımıza qovuşduq, Ermənistan isə kapitulasiya oldu. Nə üçün? Çünki hərbi əməliyyatların başladığı ilk gündən cənab Prezident İlham Əliyev Ermənistan qarşısında tək bir şərt, bir tələb irəli sürmüşdü. Bildirmişdi ki, Ermənistanın xarici işlər naziri, müdafiə naziri və ya başqa kimsə deyil, şəxsən baş nazir Nikol Paşinyan işğalçı qoşunların nə zaman çıxarılacağına dair qəti fikrini bildirdikdən və konkret cədvəl verdikdən sonra hərbi əməliyyatlar dayandırılcaq.

Nəticəsi nə oldu? Bir neçə ay əvvəl Azərbaycan qarşısında 7 şərt irəli sürən Nikol Paşinyan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı, cənab Prezident İlham Əliyevin yeganə şərtini qəbul etməyə və onun müzəffər komandan çəkmələrinin qarşısında ikiqat diz çökərək hərbi təslim aktını imzalamağa məcbur oldu. 44 günlük müharibə nəticəsində Azərbaycan dövləti niyyətinə nail oldu. Qəhrəman Azərbaycan əsgərlərinin, gizir və zabitlərinin şücaəti sayəsində düşmən yenildi. Azərbaycan Respublikası, ordusu və xalqı bu müharibədən qalib çıxdı.

Ali Baş Komandan İlham Əliyev hər bir azərbaycanlının qəlbində xüsusi milli-mənəvi yeri olan Şuşanın azad edilməsi ilə bütün Qarabağı Azərbaycana qaytardı. Tarixən belə deyilib: Şuşa Qarabağın açarıdır, Şuşa kimdədirsə, Qarabağ da ondadır. Ümummilli Lider Heydər Əliyev deyirdi ki, Şuşasız Azərbaycan yoxdur. Şuşanın işğaldan azad edilməsi və yenidən qovuşması Azərbaycanın varlığı, inkişafı və daha güclü dövlət olması deməkdir. Prezident İlham Əliyev Azərbaycan üzüyünün qaşı olan Şuşanı qaytarıb yerinə qoymaqla tariximizdə mümkün olmayanı mümkün etdi, yuxularımızı, xəyallarımızı gerçəkləşdirdi. 44 günlük müharibədə Prezident İlham Əliyev təkcə Azərbaycanı qalib etmədi, eyni zamanda, müasir dünya siyasətində həllini gözləyən bir sıra məsələləri uğurla həll etdi. Hər şeydən əvvəl, Azərbaycan Respublikası dövləti bu qələbəsi ilə BMT Təhlükəszilik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrini yerinə yetirərək dünya müdiriyyəti adlandırılan bu təşkilatın nüfuzunu, ona olan inamı bərpa etdi.

Ermənistan təkcə hərb meydanında məğlub edilmədi, Prezident İlham Əliyev dünyanın məşhur KİV-inə verdiyi müsahibələri ilə bir neçə yüz il boyunca dünyanı aldadan uydurma erməni təbliğatını təkbaşına darmadağın etdi. Yüz milyonlarla insan erməni yalanlarını başa düşdü. Dünya erməni faşizminin içi üzünü gördü. Bir daha məlum oldu ki, erməni faşizmi nasizmdən daha qəddar və iyrəncdir.

Və Azərbaycan xalqı böyük sevinc və qürur hissi ilə 44 günlük Vətən müharibəsinin başlanmasının birinci il dönümünü qeyd edir. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun həyata keçirdiyi Zəfər yürüşü Azərbaycan xalqının 30 illik torpaq həsrətinə son qoyaraq Qarabağımıza qovuşduğumuz gündür. Qələbən mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır!



**İki cəbhədə müharibə aparmış Azərbaycan bu gün sosial layihələri uğurla davam etdirir. Vətən müharibəsində Zəfər çalmış Azərbaycan SOVİD-19 pandemiyası ilə mübarizəsini davam etdirməkdədir. Bu çətin dönəmdə ölkəmizdə sosil layihələr də uğurla icra olunur. İşğaldan azad olunan ərazilərdə aparılan böyük abadlıq-quruculuq işləri ilə yanaşı, bölgələrdə də infrastruktur layihələri icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin regionlara hər səfəri tarixi hadisələrlə yadda qalır. Yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, məktəblərin istifadəyə verilməsi, "ASAN xidmət" mərkəzlərinin açılışı və s. işsizlik problemini aradan qaldırmaqla yanaşı, regionların malik olduğu potensialdan düzgün istifadə mexanizmlərini də üzə çıxarır.**

# Müasir infrastruktur layihələr uğurla reallaşır

Bu gün müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrin icrası da uğurla reallaşır. Prezident İlham Əliyevin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, aqrar sahədə intensiv texnologiyaların tətbiqi ilə bağlı tapşırığına uyğun olaraq, artıq ölkəmizdə aqroparklar yaradılıb. Aqroparkların yaradılması ölkənin ixrac coğrafiyasının genişləndirilməsində əhəmiyyətli rol oynayır. Son 18 ilin reallıqları bir daha göstərir ki, ölkəmizdə icra olunan islahatlar, həyata keçirilən dövlət proqramları bütün sahələrdə uğurların əldə olunması ilə nəticələnib. Əlbəttə ki, reallaşan layihələr ölkəmizin bütün bölgələrinin simasını tamamilə dəyişib, rayonların ucqar kəndləri belə qazlaşdırılıb, yaşayış məntəqələri içməli su ilə təmin olunub. Bu fikirlər deməyə əsas verir ki, ölkəmizdə əhalinin həyat şəraiti yüksəlib, şəhərlə kənd arasındakı fərq aradan qaldırılıb.

Əlbəttə ki, bütün bunlarla yanaşı, Azərbaycan Prezidentinin tapşırıq və göstərişlərinə əsasən, son illərdə ölkəmizdə yol infrastrukturunun qurulması istiqamətində də ardıcıl işlər görülür. Kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması məqsədilə çox mühüm layihələr icra olunub və bu davam etməkdədir.

Noyabrın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsmayıllı rayonuna səfəri çərçivəsində rayonun başlanğıcını Muğanlı-İsmayıllı yolunun 17-ci kilometrliyindən götürən Basqal-Sulut avtomobil yolunun açılışında iştirak etməsi əlbəttə ki, dövlət başçısının ölkəmizin bütün ərazilərində yol infrastrukturuna ayırdığı diqqətdən qaynaqlanır. Bu gün işğaldan azad olunmuş ərazilərdə də infrastruktur layihələr uğurla həyta keçirilir. Qeyd edək ki, Basqal-Sulut avtomobil yolunun inşası Prezident İlham Əliyevin ötən ilin iyulunda imzaladığı Sərəncama uyğun olaraq aparılıb. İki hərəkət zolaqlı yol dörd min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Basqal, Qıçatan, Tağlabiyan, Kəlfərəc, Zeyvə, Kürdüvan, Xankəndi, Mücü, Sərsurə, Keləzevə və Sulut kəndlərini birləşdirən avtomobil yolunun uzunluğu 30,1 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Yol üzərində 4 körpü tikilib və zəruri yol infrastrukturu yaradılıb. Uzunluğu 13 kilometr olan bu yol uzun müddət təmir olunmadan istifadə edildiyindən və təbii amillərin təsirindən yararsız vəziyyətdə olub. Hazırda isə yol müasir səviyyədə yenidən qurulub. Prezident İlham Əliyevin Sərəncamına uyğun olaraq inşa edilən yol 4 minə yaxın əhalinin yaşadığı 3 yaşayış məntəqəsi arasında gediş-gəlişi rahatlaşdıracaq, kənd təsərrüfatının, xüsusən də üzümçülüyün inkişafına töhfə verəcəkdir. Bu yollar hesabına təbii ki, regionların iqtisadi potensialı da yüksəlir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir.

Əlbəttə ki, bu, bir daha göstərir ki, Azərbaycanın regionlarında, paytaxt Bakıda yol-nəqliyyat infrastrukturu müasirləşdirilir, avtomobil yolları şəbəkəsi yenidən qurulur. Yeni yolötürücüləri, körpülər, tunellər, yerüstü və yeraltı piyada keçidləri inşa edilir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar ölkədə yol infrastrukturunun müasirləşməsini daha da sürətləndirir.

Prezident İlham Əliyevin Sərəncamları, eləcə də göstəriş və tapşırıqları əsasında ölkəmizdə nəzərdə tutulan bütün yol infrastruktur layihələrin icra edilməsi insanların həyat şəraitinin yaxşılaşmasına təsir edən turizmin və kənd təsərrüfatının inkişafına da təsirsiz ötüşmür.

***Zümrüd BAYRAMOVA***



# Hər günü bir tarixi qələbə - 44 gündə qazanılan Zəfər qələbəsi



**_MEHDİ BALABƏYOV,_**
**_YAP Şabran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən_**

Bu, real faktordur ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev son 18 illik Prezidentlik fəaliyyəti dövründə planlı, qətiyyətli və parlaq dialomatik siyasət aparıb. 30 il torpaqlarımızın 20 faizinin düşmən əsarətində olmasını "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin canı və qanı bahasına 44 gün ərzində "Qarabağ Azərbaycandır" nidasını qoyaraq Zəfər Qələbəsi qazandı. Başqa yol da ola bilməzdi. Çünki bu gün Azərbaycan qətiyyətli nizamlı siyasəti ilə minalanmış ərazilərin xəritələrini Ermənistandan bir-bir alaraq öz hədəflərimizə çatırıq. Bütün dünya gördü ki, Azərbaycan bütün şərtləri diktə edən tərəfdir. Çünki Azərbaycan Vətən müharibəsində qalib gəlib və hazırda şərtləri diktə edən tərəfdir. Və hazırda prioritet vəzifə ərazilərin minalardan təmizlənməsini daha tez başa çatdırmaqdır. Ermənistan otuz il işğal altında saxladığı ərazilərdə çoxlu mina basdırıb və onların xəritəsini gizlədir. Minatəmizləmə ilə əlaqədar xarici ölkələrin təcrübələrinə baxsaq görərik ki, bu iş uzunmüddətlidir. Lakin Azərbaycan Prezidentinin qətiyyətli, planlı, diplamatik siyasət aparmasının nəticəsi olaraq 7 ay keçən Zəfər qələbəmiz müddətində artıq işğaldan azad olunun rayonumuzun Ağdam, Füzuli və Zəngilan rayonlarının mina xəritələri Azərbaycana təhvil verildi. Bütün bu uğurlu nəticələr Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyətli, parlaq diplomatik qələbəsidir. Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycanın diktəsi ilə hərəkət etməkdən başqa bir çarəsi yoxdur, bunu öz xoşları ilə etməsələr, məcburən etdirəcəyik".

Çünki Azərbaycan 28 ildən sonra hər günü bir qələbə olan 44 gün davam edən İkinci Vətən müharibəsində haqq və tarixi ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək Zəfər qələbəsi əldə etdi. Bu gün Ali Baş Komandanımızın "Dəmir yumruq" əməliyyatı ilə Müzəffər Ordumuzun dəyanətli əsgər və zabitlərimizin rəşadəti ilə Qarabağ həsrətinə son qoyuldu, ona sahibindən başqa sahiblənə, yiyələnə bilməyəcəyini göstərdi. Və hər günü bir tarixi qələbə olan 44 gün ərzində bu günləri də gördük, bu günləri də yaşadıq. 44 günlük tarixi İkinci Vətən müharibəsinin, həmin günlərdə ard-arda qazandığımız qələbələrin, 8 noyabr Şuşa zəfərinin, 10 noyabr möhtəşəmliyini, əzəmətini, qürurunu yaşadıq. Zəfərəmizin rəmzi olan Şuşanın işğaldan azad edilməsi Azərbaycan xalqının gücünü, Ordunun peşəkarlığını, hərbçilərin cəsarətini və qəhrəmanlığını göstərdi.

Bir sözlə, 44 gündə Böyük Vətən Müharibəsinin Zəfər ildönümü ərəfəsində son əsrlərin ən böyük Zəfərini, Azərbaycanın yeni tarixinin yazılması sevincini, Ali Baş Komandanımızın rəhbərliyi ilə "Qarabağ Azəbaycandır və QƏLƏBƏ NİDA"sının qoyulduğu tarixini yaşayırıq. Bu, qalibin məğlub üzərindəki - Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının diplomatik və qətiyyətli siyasətinin, Güclü Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin tariximizə yazılan haqqın qələbə Zəfərinin ildönümüdür. Bu, Azərbaycan xalqının qələbəsidir. Bu tarixi qələbə Azərbaycan xalqının öz Liderinin, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin, bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirməsinin qələbəsidir. Sevindirici hal ondadır ki, 44 gün davam edən Vətən Müharibəsində ilk gündən əldə olunan qələbə müjdəsini də xalqına çatdırmaqdan qürur duyan Ali Baş Komandanımız bildirmişdi: "Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq. Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz".

Çünki bizim Prezidentimiz daima xalqı ilə, xalq da öz Prezidenti ilə birlikdədir. Məhz bu birliyin, həmrəyliyin reallığıdır ki, Prezidentimizin ilk gündən çağırışına bütün Azərbaycanın igid oğulları, ehtiyatda olan əsgər və zabitləri səs verərək, müsəlləh əsgər kimi döyüş meydanına yollandılar, torpaqlarımızın azadlığı yolunda canlarından keçərək Şəhidlik zirvəsinə yüksəldilər. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Ağdam bizimdir! Laçın bizimdir! Kəlbəcər bizimdir! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!"

Bir sözlə, bu gün Azərbaycanın yeni tarixini yazan, xalqımıza 44 gün ərzində 30 illik həsrətə son qoyan Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının "Dəmir yumruq" siyasəti ilə Güclü Ordumuzun əsgər və zabitlərimizin rəşadətilə noyabrın 8-də qeyd edəcəyimiz qələbəmizin Zəfər Günü dövlət başçımızın dediyi kimi: "Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının. Azərbaycan xalqı bir daha göstərdi ki, nə qədər böyük xalqdır, nə qədər vətənpərvər xalqdır, nə qədər dəmir iradəyə malik olan xalqdır".

Bəli, qürurla deyə bilərik ki, Azərbaycan xalqı böyük xalqdır, vətənpərvər xalqdır, dəmir iradəyə malik olan xalqdır və qürurla qalib ölkənin vətəndaşı olaraq Zəfər gününü sevinclə qarşılayırıq. Buna görə xalqımıza bu xoşbəxtliyi və tarixi qələbə sevincini yaşadan müzəffər ordumuza borcluyuq. Onlara bu şərəfli missiyanı yerinə yetirməkdə uğurlar arzulayır, Vətən üçün canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik!

**ANALİTİK + ŞƏRH**



# İranın hakimiyyətyönlü analitik saytından Ermənistana dəstək

## *Ehsan Movahediyana sifarişi kim verib?*

Vacib olduğu zaman İran Ermənistana hərbi və kəşfiyyat dəstəyi göstərməlidir. SİA xəbər verir ki, bu haqda Ermənistanın İnfoteka24 xəbər teleqram kanalı rəsmi Tehrana yaxınlığı ilə seçilən Irdiplomacy saytına istinad edərək yazır. Belə ki, adıçəkilən saytda məqalə ilə çıxış edən iranlı siyasi ekspert Ehsan Movahediyan qeyd edir ki, məhz bu kimi vasitələrlə Türkiyə-Azərbaycan hərbi-strateji əməkdaşlığına mane olmaq mümkündür. Açıq şəkildə fars şovinizmi mövqeyindən çıxış edən iranlı siyasi ekspert sözügedən məqaləsində bu birliyi "regionda ekspansionist tendensiya" adlandırır və eyni zamanda təklif edir ki, İran bu məsələdə Rusiya ilə intensiv danışıqlara başlamalı Qafqazda Tehranın maraqlarına yaranan "təhlükədə" (?-R.R.) Rusiyanın razılığı müşahidə edilməməlidir. Üstəlik, İran özünəməxsus geosiyasi ağırlığı və mümkünlüyünü Qafqaz regionunda artırmalıdır.

### Siyasi ekspert sözügedən məqaləsində yalnız Türkiyəni və Azərbaycanı deyil, həm də dolayısı ilə Rusiyanı da hədəfə alır və Moskvanı Tehrana qarşı cinahda görür

Ehsan Movahediyan həmçinin digər bir məsələyə - sanksiyalara da toxunaraq bildirir ki, ölkəsi sanksiyaların azaldılması üçün fəaliyyətə keçməlidir və bu vasitə ilə böyük qonşularına qarşı müqavimət imkanlarını artırmalıdır.

Maraqlı məqam isə budur ki, Tehran hakimiyyətinə yaxınlığı ilə seçilən siyasi ekspert sözügedən məqaləsində yalnız Türkiyəni və Azərbaycanı deyil, həm də dolayısı ilə Rusiyanı da hədəfə alır və Moskvanı Tehrana qarşı cinahda görür, yaxud belə göstərməyə çalışır. Məhz bu kontekstdən yanaşma edən müəllif mövzunu Ermənistanın üzərinə aparır, İran-Ermənistan birliyi barədə ismarıclar yollayır. Misal üçün, yazır ki, İran mövcud sərhədlərin saxlanılması məsələsində Ermənistanın mövqeyini dəstəkləməli, üstəlik hərbi və kəşfiyyat dəstəyini göstərməlidir.

### Həm Bakı, həm Ankara, həm də Moskvanın mövqelərinin üst-üstə düşməsi İrəvanın əlinə oynamır - bəs Tehran nə edir?

Eyni zamanda, təkcə bu ifadəyə diqqət yetirək və ilk nəticəni hasil edək: "Ermənistanda İranın populyarlığı artır və bu da Tehrana imkan verir ki, o, Sünikdə (Zəngəzurda-R.R.) hərbi, iqtisadi və mədəni varlığını daha geniş şəkildə artırsın".

Baxın, bu gün Azərbaycan və Türkiyə, həmçinin Rusiya Zəngəzur dəhlizinin blokadadan çıxmasında maraqlarını açıq-aydın ifadə edirlər, nəqliyyat və kommunikasiyaların açılması prosesinin regiona sülh və əmin-amanlıq gətirəcəyini vurğulayırlar. Həm Bakı, həm Ankara, həm də Moskvanın mövqelərinin üst-üstə düşmələri isə inadkarlıq göstərən İrəvanın, əslində isə, revanşçı qüvvələrin əllərinə oynamır, Tehran isə dərhal həmin məsələdən öz məqsədləri üçün istifadə etməyə cəhd göstərir, İrəvana qucaq açmağı üstün tutur. Təbii ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi müəyyən mənada İranın hansısa maraqlarına cavab vermir, amma bu, o demək deyil ki, Tehran digər ölkələrin daxili diplomatiyalarına və iqtisadi siyasətlərinə müdaxilə etməli, diktəsini irəli sürməlidir. Və buna əlbəttə ki, imkan da verilməz, çünki regionda mövcud olan 30 illik stereotiplər kökündən dağıdılaraq məhv edilib, yeni güclər meydana çıxıb və onların içində Türkiyə-Azərbaycan birliyi də var.

### Tehran həm Qafqazda, həm də ərəb Birliyində etimadını itirib və bunun da səbəbləri var

Lakin bütün bunlara etina etməyən Ehsan Movahediyan həmin məqaləsində bir az da irəliyə gedərək vurğulayır ki, İranın rəsmi ritorikası, İran mətbuatı və sosial şəbəkələri Ankara ilə Bakının "aqressiv" (?!-R.R.) siyasətinə qarşı güclü əks-təbliğat maşınına çevrilməlidir və s. Bu, o deməkdir ki, əslində, iranlı analitik ölkəsinin siyasi davranışlarını regional güclərə qarşı aqressivləşdirməyə çağırır.

Göründüyü kimi, bir müddət əvvəl rəsmi Tehranın regionda öz hərbi-diplomatik varlığını, eləcə də mühümlüyünü sübut etməyə çalışması, hətta Azərbaycanla sərhədlərdə hərbi təlimlər keçirməsi belə İranın istədiyi nəticələri vermədi. O cümlədən, İranın xarici işlər nazirinin Moskva səfəri və Kreml uğursuzluğu da bu mənada özünü təsdiq edir ki, Tehran nəinki Qafqazda, hətta Ərəb Birliyi ilə münasibətlərindəki soyuq davranışlarında bütün qonşularını müəyyən mənada itirib, yaxud etimadını qeybə uğradıb - Ermənistandan başqa. Məhz bu baxımdan, Tehran hazırkı situasiyada yeganə çıxış yolunu İrəvanla sıx təmaslarda görür, üstəlik, bəlli adamları vasitəsi ilə hərbi və kəşfiyyat məsələlərində təkliflərini irəli sürür. Onu da nəzərə alsaq ki, iranlı siyasi ekspert öz məqaləsini məhz Tehran iqtidarına yaxın saytda yerləşdirib, bu zaman ona sifarişin də haradan verildiyini asan şəkildə anlamaq mümkündür.

**_Rövşən RƏSULOV_**

# HƏP-in cəhdləri uğursuzluğa düçar olur

## *Əli İnsanovun müxalifətdaxili dialoqları nəticə vermir*



**Həbsdən çıxar-çıxmaz özünə siyasi təşkilat - Haqq və Ədalət Partiyası yaradan sabiq səhiyyə naziri Əli İnsanovun son günlər müxalifət düşərgəsində daxili dialoqlar aparması diqqət çəkməyə başladıb. Belə ki, özünü düşərgənin sayılıb-seçilən lideri olaraq təqdim edən İnsanov çox yəqin ki, vahid lider olmaq arzusundadır və bu səbəbdən də qərargahında ənənəvi müxalifət partiyalarının sədrləri ilə görüşlər keçirməkdədir.**

Maraqlıdır ki, müxalifətçi partiya sədrləri ya nəzakət baxımından, ya da maraq cəhətindən onunla görüşdən imtina etmirlər. Amma daha bir maraqlı məqam həmin görüşlərdən sonra susqunluğun saxlanılmasıdır. Yəni ən azından, görüş zamanı hansı ortaq məxsəclərə gəlinməsi barədə kiçik məlumatlar da ictimailəşdirilmir.

### Çay içmək xətrinə bir neçə nəfərin toplanışını "böyük görüş" kimi təqdim etmək də heç yerinə düşmür

Bu isə belə deməyə zəmin yaradır ki, həmin görüşlər bir srəkan çay içməklə başa çatır və heç bir mahiyyət daşımır. Məsələn, bu yaxınlarda Müsavatın başqanı Arif Hacılı Əli İnsanovla görüşdə iştirak etdi və həmin görüşün yalnız fotosu yayıldı, lakin orada hansı "dərin siyasi baxışların" ortaya qoyulması barədə, ümumiyyətlə, heç nə bildirilmədi. Belə olan halda, necə deyərlər, çay içmək xətrinə bir neçə nəfərin toplanışını "böyük görüş" kimi təqdim etmək də heç yerinə düşmür.

Bu arada, gözlər yenidən AMİP-ə tərəf çevrilib və hələ Əli İnsanovun həbsdən çıxmasından bir müddət sonra bu partiyanın sabiq səhiyyə naziri ilə anlaşmaya gedəcəyi də bildirilirdi. Lakin sonradan AMİP-in fəxri lideri Etibar Məmmədov bu iddiaların üzərindən xətlər çəkdi. Ona görə də HƏP-in AMİP-lə də hər hansı ortaq məxrəclərə gəlməsi mümkün olmayan bir məsələdir.

### Müsavatdan səs çıxmadı, AMİP isə HƏP-ə çoxdan "qiymət" verib

Məhz həmin vaxtlarda Etibar Məmmədov demişdi. SİTAT: "Mən Əli İnsanovun mövqeyini niyə dəstəkləməliyəm? Sosial şəbəkələrdə bunu iddia edənlər qələt edirlər".

AMİP lideri qeyd etmişdi ki, sabiq səhiyyə naziri Əli İnsanova əks və ya onun tərəfində deyil: "O kim, mən kim... Nəyə görə kimisə müdafiə etməliyəm, kiminsə tərəfində ya da əleyhinə olmalıyam? Hərənin öz hüququ, öz məntiqi var. Kim nə istəyir, danışa bilər. Öz danışdıqlarına da hər kəs özü cavabdeh olmalıdır".

Etibar Məmmədov Əli İnsanovun çıxışları ilə də maraqlanmadığını bildirib: "Onun çıxışları ilə bağlı da heç bir fikrim yoxdur... Vaxtilə nazir işləyib, həbsdə yatıb. Nə danışırsa, məlumdur ki, özü öz sözlərinə cavabdeh olmalıdır. Nəyisə hesablayıb, danışırsa, özü cavabdeh olmalıdır. Mən niyə onun çıxışlarına qiymət verməliyəm?".

### HƏP-in də yeri cırtdan partiyaların yanıdır

Göründüyü kimi, AMİP-in lideri bir müddət əvvəl HƏP-in sədri barədə belə düşünübsə, onda milli istiqlalçılardan kiminsə fərqli mövqe nümayiş etdirəcəyinə də inanmaq ümumiyyətlə, qeyri-mümkündür.

Qaldı ki digər müxalifət partiyalarının İnsanovla bir araya gəlib siyasi orientasiyalarını dəyişdirmələrinə, ya da siyasi mövqe birliyi nümayiş etdirmələrinə, bu da hər hansı bir nəticəyə gəlinə bilinməyəcəyini bəri başdan müəyyən etməkdədir. Və əgər bu gün HƏP rəsmi qaydada qeydiyyatdan keçən siyasi təşkilatdırsa, onda təşkilatın hətta qeydiyyatlı halda ölkə gündəmində hansısa maraqlarını reallaşdıracağına inanmaq mümkün deyil. Yəni HƏP də belə davam edərsə, səssiz-səmirsiz və cırtdan partiyalar sıralamasında yer tutan bir təşkilat kimi qalacaq.

***Rövşən RƏSULOV***

---

# ZƏFƏR

## GÜNÜMÜZÜN ŞƏHİDLƏRİ



RƏFİQƏ

Vətən düşmənin qarşısını kəsən əzəmətli, vüqarlı Qaladır! Bu Qalanı ucalıq mərtəbəsində tutan, ruhunun ucalığı bilən, sal qaya kimi düşmənin qarşısını kəsən igid oğullardır. 2020-ci il sentyabrın 27-də mənfur Ermənistanın təxribatına cavab olaraq Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarının "İRƏLİ!" əmri ilə Müzəffər Ordumuzun əsgər və zabitlərimizin igidliyilə 30 illik düşmən işğalında olan torpaqlarımız "Dəmir yumruq" siyasəti ilə 44 gün ərzində haqq, ədalət yolunda ərazi bütövlüyümüz bərpa olundu, Qarabağımız özümüzə - sahibinə - Azərbaycanımıza qaytarıldı. Bununla da Azərbaycan Vətən Müharibəsini Qələb ilə başa vurdu. Bu Zəfər isə torpağını, Vətənini sevən, döyüş meydanında vuruşub bu yoldan dönməməyi seçən, azadlığın verilmədiyini, alındığını sübut edən qəhrəman oğullarımız oldu. Vətəni sevməyi sözdə yox, əməldə göstərən torpaq, ana Vətən yolunda canlarından keçən Zəfər günümüzün, Zəfər səlnaməsini yazan Şəhidlərimizdir. Bu realllığı Azərbaycan xalqı görür və qürur duyur. Bəlkə də bu son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində bütövləşən Azərbaycanımıza - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır.

18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!

Ali Baş Komandanımız, Prezident İlham Əliyev 44 gün davam edən Vətən Müharibəsi müddətində bütün çıxışlarında, müsahibələrində bildirib ki, şəhidlərimizin qanı yerdə qalmayacaq: "Onların qəhrəmanlığı, şücaəti nəticəsində bu gün bizim doğma torpaqlarımız bizə qayıdıb". Tarixi Qələbəimizi reallaşdıran Ali Baş Komandanımız həm döyüş meydanında, həm də siyasi meydanda bir daha sübut etdi ki, haqq, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, Qarabağ Azərbaycandır! reallığını 44 gündə - mümkünsüzü mümkün etdik! Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. 44 gün ərzində 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu, Silahlı Qüvvələrimiz Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndlərini işğaldan azad etdi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. 8 noyabr isə Azərbaycan tarixinə Qələbə günü kimi düşdü. Qarabağın tacı, ölkəmizin ən dilbər guşələrindən biri, muğamımızın beşiyi Şuşa mənfur düşmən tapdağından qurtuldu. 10 noyabrda isə dövlət başçımız İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır".

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Ali Baş Komandanımız, Prezident İlham Əliyev cənablarımız noyabrın 8-də Qələbə Zəfərini Şəhidlər xiyabanından verməsi də təsadüfi deyildi: "Bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq".

Prezident İlham Əliyev cənabları işğaldan azad olunan torpaqlarımıza tarixi səfərlərində də bildirmişdir ki, bu müharibə igid hərbçilərimizin, şəhidlərimizin qəhrəmanlığı sayəsində düşmən döyüş meydanında məhv edildi, "məğlubedilməzliyi" barədə yalanlar ifşa edildi, Azərbaycan əsgərinin yenilməzliyi sübut olundu: "Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq".

Bəli, düz bir il öncə Şəhidlər düşmən əlində inləyən elin, obanın bağrı yaralı Qarabağın harayını bizə çatdırdılar. Şəhidlər bizə ölümdən sonra da həyatın var olduğunu, yaşamağın mümkünlüyünü göstərdilər. Onlar Vətən üçün can əsirgəmir, şəhadətləriylə ölümü ucaldıb ölümsüzlüyə, əbədiyyətə qovuşurlar. Şəhid qanı axmayan torpaqdan Vətən olmaz,-deyir atalarımız. Çünki Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü şüurlu şəkildə qurban vermək deməkdir. "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" bunu da babalarımız deyib. İstər Mübariz İbrahimovun, istər 2016-cı il Aprel döyüşləri zamanı qorxu duymadan, ürəklərində böyük Vətən sevgisi ilə qəhrəmancasına döyüşüb Şəhid olan Murad Mirzəyev, Raquf Orucov, Samid İmanov, Qabil Orucəliyev və başqaları, istərsə də 44 gün ərzində general, Milli Qəhrəman Polad Həşimovun, 2783 nəfər oğullarımızın torpaq, Vətən yolunda canlarından keçmələri ilə bir daha sübut etdilər ki, Vətənə şərəfdi, şandı, hər biri bir Azərbaycandı şəhidlər! Əgər şəhid anası əlinə silah alıb, "mən də döyüşə hazıram" deyirsə, bu millətin qarşısında kimsə dura bilməz.

Əgər bu gün dövlət başçımız siyasi arenada mənfur erməniləri cavabı ilə çıxılmaz duruma salırsa, deməli, biz varıq, yenilməzik. Şəhid atası, şəhid anası: "Təki Vətən sağ olsun",-deyərək ətafdakılara təskinlik verirsə, necə qürurlanmayasan, fəxr etməyəsən. Budur, Vətənə olan sonsuz sevginin təcəssümü. Şəhidlik zirvəsinə yüksələn igid oğullarımıza ailələri, xalqımız ağı demədi. "Şəhidlər ölməz, Vətən bölünməz" deyib qürur duydular, Vətən sağ olsun, söylədilər. "Vətəndən pay olmaz!",-deyib erməni vandallarının başına od-alov ələyən, bu yolda sinəsini sipər edən vətən oğullarının ruhu hamıya əzizdir. Onlar tarix boyu unudulmayacaqlar. Adları əbədiləşəcək. Ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə onların ölməzliyini əbədiləşdirmək üçün orden və medallar təsis olunub. Şəhid ailələrinə sonsuz diqqət və qayğı ölkə rəhbərliyi və xalqımız tərəfindən daim olacaqdır. Şəhidlik kimi uca zirvədə qərar tutanlar qəlbimizin ən ali guşəsində əbədi yaşayacaqlar. Onların həyat salnaməsi, ömür yolu gənclərə əsl nümunədir.

Ulu Öndərimiz Heydər Əliyevin bizə əmanəti olan müstəqil Azərbaycan, bu gün öz tarixinin ən şərəfli günlərini yaşayır! Azərbaycan Ordusu, əsgəri Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında dünya düzəninin yeni tarixini yazaraq, işğal altında olan Vətən torpaqlarını işğaldan azad etmiş, xalqımızın, ordumuzun zəfər salnaməsini yazmış və yeni reallıq yaratmışdır! Vətən müharibəsinin nəticəsii göstərir ki, Azərbaycan Ordusu 44 gün ərzində Ermənistan üzərində qələbə qazanaraq Üçrəngli bayrağımızı cənnətməkan Qarabağda əbədi dalğalandırılmasını və tarixi ədalət bərpa etmişdir. Bax, indi Ulu Öndərimiz Heydər Əliyevin və bütün şəhidlərimizin ruhu hüzur tapmışdır.

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

---

# AÇIQLAMA: "AXCP və Müsavat kimi partiyalar ayrı-ayrı fondlara bağlıdırlar"



**"2020-ci il 27 sentyabr Azərbaycan xalqının tarixində unudulmaz günlərdən birinə çevrildi. 27 sentyabr Böyük Qələbəmizə aparan yolun başlanğıcıdır, qürurverici bir gündür". Bunu "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.**

Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi bütün dünyaya bir daha göstərdi ki, Azərbaycan xalqı vətənpərvər, qəhrəman xalqdır, vətəni, bayrağı, dövləti canından əziz bilir: "Lakin bu gün bu parlaq qələbəyə kölgə salmaq istəyən bəzi qüvvələr var. Amma onların bu parlaq qələbəyə kölgə salmağa gücü çatmayacaqdır. Bu gün Azərbaycan inkişaf yolundadır. Prezidentimiz Azərbaycan dövlətini daha da sürətli şəkildə inkişaf etdirmək üçün çox çeşidli tədbirlər həyata keçirir. İnkişaf etmiş Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq istəyən həm xaricdə, həm də daxildə qüvvələr var. Yəni ölkəmizin inkişaf etməsi həmin qüvvələri qıcıqlandırır və bu inkişafdan çox narahat olurlar. Həmin qüvvələr bu inkişafa kölgə salmaq üçün müxtəlif variantlardan, o cümlədən, həmin müxalif ünsürlərdən alət kimi istifadə edirlər. Amma müxalifət düşərgəsini təmsil edən qüvvələr bu gün nə etməsindən və nə istəməsindən asılı olmayaraq onların ölkəmizlə bağlı məkrli planları heç vaxt baş tutmayacaq. Çünki həmin qüvvələr cəmiyyət tərəfindən dəstəklənməyən qüvvələrdir. AXCP, Müsavat kimi partiyalar ayrı-ayrı qütblərə, ayrı-ayrı fondlara bağlıdırlar. Bugünkü reallıq onu təsdiq edir ki, müxalifət çox acınacaqlı bir durumdadır. Sadəcə olaraq, bunlar gündəmə gəlmək üçün çox müxtəlif çeşidli üsullara əl atırlar. Normal siyasi fəaliyyət göstərməmələri ucbatından cəmiyyət tərəfindən qəbul edilmir".

***Gülyana***

# CƏNUBİ QAFQAZDA YENİ MÜNAQİŞƏ TƏHLÜKƏSİ VAR?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



## Yuri Şevtsov: “Bir sıra böhranlı vəziyyətlər olanda Belarusun köməyinə, məhz Azərbaycan gəlmişdi”

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” istiqaməti çərçivəsində hazırlanıb.*

Belaruslu politoloq, Avropaya İnteqrasiya Problemləri Mərkəzinin direktoru Yuri Şevtsov "Caliber" analitik mərkəzinə müsahibəsində regionumuzda gedən proseslər haqda maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Azərbaycan Ermənistanla sülh müqaviləsinin bağlanmasının tərəfdarıdır və prezident İlham Əliyev özü də dəfələrlə vurğulayıb ki, Bakı Yerevanla sülh sazişi imzalamağa hazırdır, lakin Ermənistan tərəfi buna hazır deyil. Sizcə, Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamaqda niyə maraqlı deyil?***

- Hesab edirəm ki, Ermənistan müharibədə məğlubiyyətini hələ tam dərk etməyib. Yəni bu, daxili amillərdən çox asılıdır, nəinki xarici. Ermənistan cəmiyyətinə ölkənin bundan sonra necə inkişaf edəcəyini anlamaq üçün vaxt lazımdır.

Digər tərəfdən, düşünmürəm ki, Ermənistanda kimsə 44 günlük müharibə zamanı Azərbaycanın geri qaytardığı ərazilərin "geri qaytarılması" barədə ciddi fikirləşir.

***- Qarabağda müharibə başa çatıb və bu gün çoxlarını maraqlandıran sual budur: bundan sonra nə var? Cənubi Qafqaz regionunda, Bakı ilə İrəvan münasibətlərində nə baş verəcək? Azərbaycan və bütövlükdə regionumuz hansı yeni çağırışlarla üzləşə bilər?***

- Mənə elə gəlir ki, Ermənistanla Azərbaycan arasında böyük ikitərəfli münaqişənin vaxtı keçmişdə qalıb. İndi sizin regionunuzda ABŞ-ın Yaxın Şərqdən çıxması kontekstində münasibətlərini yeni tərzdə yenidən qurmalı olan böyük xarici oyunçular arasında yeni münaqişə təhlükəsi var. Mən indi ən böyük təhlükəni İranla Türkiyə, bəlkə də daha geniş şəkildə desək, bir tərəfdən İranla digər tərəfdən İsrail, Türkiyə, Avropa İttifaqı, NATO və s. münasibətlərində görürdüm, niyə? Çünki İranın qayıtdığı uranın zənginləşdirilməsi proqramı münaqişəsiz həyata keçirilə bilməz. ABŞ və İran arasında nəticəsiz danışıqlar gedir. ABŞ-ın danışıqlarla bağlı bəyanatları getdikcə daha çox narahatlıq doğurur. Bu kontekstdə son vaxtlar Azərbaycanla İran arasında gərginləşmə məntiqlidir. Çünki İranda nüvə silahının görünməsi bütün region üçün problem olacaq.

Sizin regiona aid olan və burada münasibətləri xeyli gərginləşdirə biləcək ikinci problem Gürcüstandakı vəziyyətdir. Tiflis uzun illərdir ki, açıq-aşkar amerikapərəst mövqe tutur. Amerikanın Yaxın Şərqdən çıxarılmasından ən çox itirən Gürcüstandır. Bunun özünü necə göstərəcəyini hələ deyə bilmərik. Çox müxtəlif ssenarilər ola bilər. Amma sizin regionunuzda ən çox itirən Gürcüstandır və bu, bir çox şeyə təsir edəcək.

Eyni zamanda, regionunuzu təhdid edən təhlükələr birbaşa müharibə təhlükəsi deyil. Bu, daha çox hibrid müharibələrin təhlükəsidir. Hibrid müharibələr çox məkrlidir. Onlar başlayanda hər kəsə elə gəlir ki, bu xırda şeydir və siz həmişə hər şeyi düzgün proqnozlaşdırıb qiymətləndirə bilərsiniz. Uzun və potensial təhlükəli müharibə başlayır. Burada səhv etməmək və anı qaçırmamaq vacibdir.

***- Sizcə, Zəngəzur dəhlizinin taleyi necədir? Bu dəhlizin işə salınması, əsasən, hansı amillərdən asılı olacaq?***

- Mənə elə gəlir ki, bu problemi ikitərəfli və ya üçtərəfli münasibətlər səviyyəsində çətin həll etmək olar: Ermənistan - Azərbaycan, Rusiya - Ermənistan - Azərbaycan. Burada çox güman ki, Zəngəzur dəhlizi probleminə böyük regional kontekst kimi baxmaq lazımdır. Əgər yaranan problemlərin regional həlli üçün işlək mexanizm yaratmaq olarsa, o zaman o, 3 Cənubi Qafqaz ölkəsinə və 3 böyük xarici oyunçuya - Rusiya, İran, Türkiyəyə arxalanacaq, o zaman nəyəsə ümid etmək olar.

***- Zəngəzur dəhlizi layihəsi Çin üçün cəlbedici ola bilərmi? Bu, Çinin "Bir qurşaq, bir yol" təşəbbüsünün elementlərindən birinə çevrilə bilərmi?***

- Bəli, o, ümumi olaraq Çinin "Bir qurşaq, bir yol" təşəbbüsünə uyğun gəlir. Ancaq diqqətinizi bir fakta cəlb etmək istəyirəm ki, Çin əsas diqqəti iqtisadi diplomatiyaya yönəldir. Ona görə də Zəngəzur dəhlizi boyunca Çinin danışıqlar prosesində iştiraka hazır olmasını gözləməzdim. Burada Çinlə münasibətlər iqtisadi alətlər vasitəsilə bir növ fərqli şəkildə qurulmalıdır.




***- Başa düşdüyümə görə, Azərbaycan və Ermənistan əvvəlcə Zəngəzur dəhlizi ilə bağlı razılığa gəlməlidir və yalnız bundan sonra Çin bu layihədə iştirak imkanlarını nəzərdən keçirə bilər?***

- Belə də demək olar. Çin başa düşür ki, Azərbaycan və Ermənistan ikitərəfli əsasda çətin bu problemi həll etsin, bu, yalnız Rusiya, Türkiyə və İranın hansısa formada iştirakı ilə ola bilər. Çin bu mövzuya o zaman girəcək ki, başqa qüvvələr siyasi problemi həll etsin.

***- Əfqan mövzusuna keçim. Taliban hakimiyyətdə möhkəmləndikdən sonra Mərkəzi Asiya regionunda bundan sonra nə baş verəcək?***

- Məncə, onların vəziyyəti çox ağırdır və partlayış həddindədir. Əsasən, beynəlxalq ictimaiyyətin son aylarda Əfqanıstana lazımi yardımı göstərməməsi ilə bağlıdır. Elə bu günlərdə BMT Əfqanıstanda 23 milyondan çox insanın qida çatışmazlığından əziyyət çəkdiyini açıqladı. Bu, əhalinin yarıdan çoxunu təşkil edir. Vəziyyət çox ağırdır və ciddi böhranla doludur. Bunun necə və hansı ssenaridə lokallaşdırıla biləcəyini söyləmək mənim üçün çətindir. Çünki çox şey ABŞ-ın, bütövlükdə Qərbin Əfqanıstan hökumətinə məxsus olan və Taliban hakimiyyətə gəldikdən sonra blokadaya salınan Qərb banklarındakı həmin vəsaitləri blokdan çıxarmaq qərarından asılıdır. Bu, 10 milyard dollardan çoxdur. Nəzəri olaraq, bu vəsait çox geniş miqyaslı aclığı təcili dayandırmaq üçün kifayətdir.

Prinsipcə, böyük partlayışın qarşısını almaq üçün hələ də bəzi imkanlar var. Ancaq ən çətininə hazırlaşmalısınız. Bu partlayış baş verəndə məncə İran orada ən zəif halqa olacaq. ABŞ bu partlayışı İrana yönəldəcək. Düşünürəm ki, KTMT bu partlayışı Tacikistandan uzaqlaşdıra biləcək, lakin İran sual altındadır. Üstəlik, İranın nüvə proqramı ilə bağlı danışıqlarda Qərblə İran arasında münasibətlərdə böyük çətinlik var və Qərbin Əfqanıstan vasitəsilə Tehrana təzyiq göstərəcəyini gözləmək məntiqlidir.

***- Əfqanıstandakı yeni proseslər fonunda KTMT ilə bundan sonra nə baş verəcək?***

- Düşünürəm ki, Əfqanıstandakı vəziyyət KTMT-nin sadəcə olaraq toplaşmasına səbəb olub. KTMT-nin Əfqanıstanda keçirilən həmin təlimlərində Tacikistandan uzaqda olan Belarus da iştirak edib.

Vəziyyətin gərginləşəcəyi təqdirdə KTMT Əfqanıstanla sərhədi cilovlaya biləcəkmi? Məncə, bəli. Niyə? Mən görürəm ki, Tacikistanda rus kontingentinin çox sürətlə yenidən silahlanması gedir. Ən müasir silahlar, ən müasir texnologiya Tacikistana gəldi. Tacikistanın özü də mümkün münaqişəni bütün gücü ilə əks etdirməyə hazırlaşır. Hətta silahlı qüvvələrin qismən səfərbərliyini də həyata keçirdilər. Əfqanıstandan gələn təhlükələrə tab gətirə biləcəklərmi? Məncə, bəli.

Talibandan böyük zərbə olsa, Rusiya silahlı qüvvələri onu dəf edəcək. Kiçik müdaxilələr Tacikistan daxilində qeyri-sabitliklə dəstəklənərsə, təhlükəli ola bilər. Mənə elə gəlir ki, bütün təhdidlərə baxmayaraq, Tacikistanla sərhədlər saxlanılacaq. Özbəkistan KTMT-dəki üzvlüyünü dayandırıb. Amma o da rahatlamır. Sərhədini tam sürətlə möhkəmləndirir. KTMT bu böhranın gedişində güclənir. Yaxın gələcəkdə KTMT-də dağılma olmayacaq.

***- Azərbaycanla Belarus arasında gələcək hərbi-texniki əməkdaşlığın inkişafını necə görürsünüz?***

- Hələlik hər şey qaydasındadır. Ümumiyyətlə, Azərbaycanla Belarus arasında əla münasibətlər var. Getdikcə daha da artacaq. Bir sıra böhranlı vəziyyətlər olanda Belarusun köməyinə məhz Azərbaycan gəlmişdi. Bizdə münasibətlərin çox yaxşı təməli var. Bu münasibətlərin əsasını iqtisadiyyat təşkil edir. Hələlik hər şey qaydasındadır. Yalnız Qərbin Belarusa qarşı sanksiyaları münasibətlərin inkişafına mane ola bilər. Amma hələ ki, onların Azərbaycana ciddi təsiri olduğunu görmürəm. Orada bizim Azərbaycanla əməkdaşlıqla bağlı elə layihələrimiz var ki, nəzəri cəhətdən bu sanksiyalar onlara xüsusi təsir göstərməməlidir. Mən nə aşağı, nə də yuxarı hər hansı bir təhlükə gözləmirəm.

Silahların tədarükünə gəlincə, onlar davam edəcək. Onlar uzunmüddətli müqavilələr əsasındadır. Deyə bilmərəm ki, kimsə onları pozmaqda maraqlıdır.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
Səs
3 noyabr
2021-ci il

# Ronaldo: "İtaliya ürəyimdə əbədi qalacaq"




"Mançester Yunayted"in portuqaliyalı hücumçusu Kriştiano futbol üzrə UEFA Ronaldo Çempionlar Liqasının qrup mərhələsinin 4-cü turunda "Atalanta" ilə səfər oyunu öncəsi fikirlərini bildirib. Portuqaliyalı superulduz özünün "İnstaqram" hesabında belə yazıb:

"Məni və ailəmi çox gözəl qarşılayan, ürəyimdə əbədi qalacaq heyrətamiz bir ölkə olan İtaliyaya qayıdıram. Təcrübəmdən bilirəm ki, Berqamoda "Atalanta" kimi komandaya qarşı oynamaq həmişə çətindir, lakin biz qrupumuzda birinci yeri saxlamaq üçün əlimizdən gələni edəcəyik. Bu, Çempionlar Liqasıdır və biz "Mançester Yunayted"ik. Davam edək, "qırmızı şeytanlar". Xatırladaq ki, Ronaldo yayda "Yuventus"dan "Mançester Yunayted"ə transfer olunub.

# Diqqət:

## *Ana südünün dadı yeyilən qidalardan asılı olaraq dəyişir*

Ana südü uşağın inkişafı və sağlam qidalanması üçün əvəzolunmaz nemətdir. Ana südünün faydalı olması hər kəsə məlum olsa da, bu barədə bəzi vacib və maraqlı faktları bilmək də yararlı olardı. Ana südü haqqında maraqlı məlumatları sizlərə təqdim edirik.

Bir dəfə ana südü ilə əmizdirmə zamanı 500-600 kalori enerji sərf olunur. Ana südünün tərkibinin 87 faizi sudan təşkil olunduğu üçün o, qida olmaqla yanaşı, uşağın suya olan tələbatını tamamilə ödəyir.

Ana südünün tərkibində körpənin infeksiyaya qarşı mübarizə aparmasına kömək edən antikorlar və canlı ağ qan hüceyrələri var. Ana və ya körpə xəstələnəndə ana südündəki bu hüceyrələrin miqdarı artır.

Ağız südü (ilk ana südü) körpənin bağırsaq sistemini örtən xüsusi zülallardan ibarətdir ki, bunlar da körpəni zərərli bakteriyalardan qoruyur.

Əmizdirmə zamanı beyin prolaktin və oksitosin hormonlarını ifraz edir ki, bu da körpə ilə emosional əlaqə qurmağa, həmçinin stres atmağa kömək edir.

Ana südünün qoxusu və da-



dı yeyilən qidalardan asılı olaraq dəyişir. Körpə ana südü vasitəsilə müxtəlif qoxu və dadla tanış edilərsə, o, gələcəkdə qidalara qarşı daha az seçici yanaşacaq. Körpə əlavə qidalanmaya keçdikdə, yeməyin tərkibindəki inək südü əvəzinə ana südü istifadə edilə bilər.

Ana südü həmişə ağ olmur. Nə yeyildiyindən və ya içildiyindən asılı olaraq mavi, yaşıl, sarı, çəhrayı və ya narıncı ola bilər. Narahat olmağa dəyməz, çünki bunun körpəyə ziyanı yoxdur.

Ana südünün miqdarı süd vəzisinin ölçüsündən asılı deyil. Ana südünün miqdarı böyüyən körpənin ehtiyaclarını ödəmək üçün daim dəyişir.

# "Nar" 4G istifadəçilərinin sayı artıb

Abunəçilərini kəsintisiz və sürətli internet təcrübəsi ilə təmin etməyi hədəfləyən "Nar"ın 4G istifadəçilərinin sayı 2021-ci ilin 9 ayı ərzində ümumilikdə 23% artıb. Artıma hər bir abunəçinin ehtiyaclarına uyğun xüsusi təkliflərin təqdim olunması, Bakı və regionlarda yeni baza stansiyalarının quraşdırılması, eyni zamanda şəbəkə üzrə davamlı optimallaşdırma işləri səbəb olub. Qeyd edək ki, mobil operatorun 4G istifadəçilərinin 62%-i paytaxt Bakının, 38%-i isə regionların payına düşür.

"Nar"ın 4G istifadəçiləri sərfəli şərtlərlə müxtəlif ölçülü internet paketlərindən yararlanır, eyni zamanda ölkədaxili dəqiqələr, bol internet və bonusları özündə birləşdirən "FULL" paketlərini seçirlər. Qeyd edək ki, "Nar" şəbəkəsi 8780-dən artıq baza stansiyası ilə ölkə əhalisinin 99,9%-ni, ölkə ərazini 90%-ni şəbəkə ilə əhatə edib.






# "Ali təhsil haqqında" yeni qanun layihəsi ictimai müzakirəyə çıxarılacaq

**"Ali təhsil haqqında" yeni qanun layihəsi ictimai müzakirəyə çıxarılacaq. SİA-nın məlumatına görə, dünən Milli Məclisin Elm və təhsil komitəsi yanında İşçi Qrup tərəfindən hazırlanan "Ali təhsil haqqında" yeni qanun layihəsinin müzakirəsi keçirilib.**

Layihə barədə Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, təhsil nazirinin müavini İdris İsayev, deputatlar və digər şəxslər çıxış ediblər. Daha sonra İşçi Qrup tərəfindən qanun layihəsinin daha da təkmilləşdirilməsi, bəzi məsələlərin dəqiqləşdirilməsi və daha sonra ictimai müzakirəyə çıxarılması barədə qərar qəbul olunub.

Qeyd edək ki, Milli Məclisin Elm və təhsil komitəsi yanında İşçi Qrup tərəfindən "Ali təhsil haqqında" yeni qanun layihəsi hazırlanır. Yeni qanun layihəsi bir neçə dəfə müzakirə edilib, bir sıra düzəlişlərin edilməsi təklif edilib. Hazırda qanun layihəsinin təkçilləşdirilməsi üzərində iş aparılır.

*Aysel Məmmədova*

# Alimlər keçəlləşmənin səbəbini tapıblar

***Çikaqonun Şimal-Qərb Universitetinin alimləri keçəlliyin niyə baş verdiyini izah ediblər. Araşdırmanın nəticələri "Nature Aging" jurnalında dərc olunub. Alimlər siçanlar üzərində apardıqları təcrübələrdə müəyyən ediblər ki, saçın kök hüceyrələri yaşlandıqca daha az yapışqan olur, follikulda xüsusi yerlər buraxaraq dermisə daxil olur. Zərif mikromühitdən kənarda onlar adətən yaşaya bilmirlər.***

"Nəticədə tüklərin böyüməsi üçün lazım olan kök hüceyrələrin sayı azalır. Bu, saçların seyrəkləşməsinə və tədricən keçəlləşməyə gətirib çıxarır", - deyə tədqiqat müəllifləri bildiriblər. Alimlər keçəlliyin bu mexanizmi haqqında ilk dəfə belə bir araşdırma aparıblar. Tədqiqatın müəllifləri ümid edirlər ki, onların kəşfi insanlarda saç tökülməsi ilə mübarizə aparmağa kömək edəcək, çünki siçanların follikulları insanlarla çox oxşardır.

Bir qədər əvvəl məlum olmuşdu ki, COVID-19 xəstəsi olan bir çox insan güclü saç tökülməsi ilə qarşılaşır. Prosesi dayandırmaq üçün dəqiq diaqnoz qoyacaq bir mütəxəssisdən məsləhət almalı, bədənin hansı elementlərinin çatışmadığını öyrənməli və sonra tam bir müalicə təyin edilməlidir.



Başın və ya bədənin müəyyən nahiyələrində tüklərin qismən və ya tamamilə yox olmasına səbəb olan patoloji saç tökülməsi tibdə alopesiya (keçəllik) adlanır. Ən çox görülən alopesiya növləri androgenetik, diffuz və ya simptomatik, fokuslu və ya yuvaşəkilli olur.

*Nubar Süleymanova*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**